

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 14 (24.449)

*12 aprel 2025-ci il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Beynəlxalq forumun mühüm mesajı:

## "Cənubi Qafqazda ayırıcı xətlər yaratmaq istəyən qüvvələrin səyləri uğurla nəticələnməyəcək"



*Azərbaycan beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq zəminində daim bu siyasi platformalardan sülhün bərqərar olunduğu, sabit, əmin-aman, sağlam dünya naminə çağırışlar edir, bəşəriyyətin etibarlı gələcəyi üçün mühüm təşəbbüslər irəli sürür. Aprelin 9-da ADA Universitetində Prezident İlham Əliyevin iştirakı ilə keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum da dünya düzəninin formalaşdırılması istiqamətində mühüm dialoqların qurulması, qlobal gündəlikdə duran məsələlərə dair müzakirələrin aparılması, düzgün istiqamətlərin müəyyənləşdirilməsi baxımından faydalı oldu. Dövlətimizin başçısı ayrı-ayrı ölkələrin, siyasi təsisatların, beyin mərkəzlərinin nümayəndələrinin, beynəlxalq ekspertlərin ünvanladığı sualları aydın, dolğun şəkildə cavablandırdı, yeni dünya nizamına doğru hərəkətlənməyə maneə yaratmağa, regionda ayrı-seçkilik salmağa çalışan dairələrə ciddi mesajlar ünvanladı.*

*Azərbaycan dünyada ölkələrarası siyasi, mədəni dialoqa qapı açan, iqtisadi münasibətlərin qurulmasına, əməkdaşlıqların dərinləşməsinə töhfə verən aparıcı Cənubi Qafqaz ölkəsi kimi tanınmağı bacarıb. Respublikamız bu prosesə ilk olaraq regionda otuz ildir, davam edən münaqişəni həll edərək hərbi-siyasi, mədəni, iqtisadi təcavüzün kökünü kəsməklə başladı. Vətən müharibəsində qazanılan tarixi zəfərdən sonra ölkəmizə artan etimad, etibar həm regional, həm də beynəlxalq əməkdaşlıqların genişləndirilməsində fəal iştirakla, təşkilatlara üzvlüyə qəbul olmaqla öz sözünü deməkdədir. Təsadüfi deyil ki, son beş ildə Azərbaycan bir sıra Avropa, Asiya ölkələri ilə strateji tərəfdaşlığa, o cümlədən üç ölkə – Türkiyə, Rusiya və Özbəkistanla strateji müttəfiqliyə imza atıb. Ölkəmizin bir sıra beynəlxalq konfranslara, forumlara ev sahibliyi etməsi, Prezident İlham Əliyevin zirvə görüşlərinə mötəbər qonaq qismində dəvət alması, siyasi dialoqlarda fəal iştirakı, dünyada gedən proseslərə dair nüfuzlu media qrumlarının dövlətimizin başçısından xüsusi rəylər almaları müdrik liderin artan siyasi xarizmasının mühüm göstəriciləridir.*

Səhifə ⇨ 5

## İnsanlara nur bəxş edən alim



Səhifə ⇨ 6

## Yeni turizm mövsümündə qarşıda ciddi vəzifələr dayanır



Səhifə ⇨ 10

# Heydər Əliyev yolu ilə gələcəyə doğru



***Hər bir xalqın milli azadlığa və dövlət müstəqilliyinə qovuşması üçün vacib olan mühüm şərtlərdən biri milli iradəyə və tükənməz Vətən sevgisinə malik siyasi liderin olmasıdır. Tariximizə öz adını əbədi həkk etmiş Ümummilli Liderimiz Heydər Əliyev belə şəxsiyyətlərdəndir. Ulu Öndərimiz xalqımızın daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi ali idealların gerçəkləşməsinə nail olmuş, bununla da əbədiyaşarlıq hüququ qazanmışdır. Ümummilli Lider Heydər Əliyevin zəngin irsi müstəqil Azərbaycan dövlətinin inkişafı və tərəqqisi yolunun etibarlı bələdçisi olmaqla indiki və gələcək nəsillər üçün böyük qürur və iftixar mənbəyidir.***

Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycanın siyasi tarixini yaradan şəxsiyyətdir. Siyasət olimpinin ən yüksək zirvələrini fəth etmiş görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycanın memarı və qurucusudur. Adı müasir tariximizə qızıl hərflərlə yazılan Ulu Öndərimizin ömür yolu xalqa xidmət nümunəsidir. “Azərbaycanın bəxti onda gətirib ki, tarixinin ən mürəkkəb və həlledici məqamlarında ona dahi şəxsiyyət Heydər Əliyev rəhbərlik edib”. Bu hər bir azərbaycanlının və dünyanın məşhur siyasətçilərinin yekdil fikridir. Həyatının son dəqiqəsinədək xalqının gələcək taleyi haqqında düşünən Ulu Öndərimiz müstəqil, dünyada öz sözü və yeri olan qüdrətli Azərbaycan dövlətini yaratmışdır.

Ulu Öndər Heydər Əliyev özündən sonra gələcək nəsillər üçün çox zəngin irs qoymuşdur. Bu irs bütöv bir idarəçilik məktəbini, xalqımızın özünütəsdiq, həmrəylik və milli dövlətçilik şüurunu, çağdaş ictimai-siyasi fikrin ən ümdə keyfiyyətlərini özündə ehtiva edir. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası ən yeni tariximizdə məhz xalqımızın böyük oğlu Heydər Əliyevə məxsusdur.

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran, cəmiyyətdə qanunçuluğu, hüquq qaydalarını təmin edən dahi rəhbər idi. 1969-cu ildə dahi şəxsiyyət Heydər Əliyevin respublikamızda rəhbərliyə gəlməsi sovet rejiminin sərt qanunlarına baxmayaraq, Azərbaycanda böyük iqtisadi, elmi və ədəbi-mədəni inkişafa, müstəqil düşüncəyə yol açmışdır. Qısa zaman kəsiyində Azərbaycan iqtisadi potensiala malik olan respublikaya çevrilmişdir. Müstəqil Azərbaycanın sosial-iqtisadi bünövrəsi məhz Ulu Öndər Heydər Əliyevin sayəsində ötən əsrin 70-80-ci illərində qoyulmuş və ölkəmizin gələcəyi üçün möhkəm təməl yaradılmışdır.

Taleyin hökmü ilə iki dəfə xilaskarlıq missiyasını üzərinə götürən Ümummilli Lider Heydər Əliyev Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, ona dayaq olmuş, Azərbaycanı zamanın ağır məngənəsindən xilas etmişdir. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması məhz Ulu Öndər Heydər Əliyevin titanik fəaliyyəti sayəsində mümkün olmuşdur.

Əgər 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli Azərbaycan dövlətindən danışa bilməzdik. Bu qayıdış Azərbaycanın müstəqilliyini reallığa çevirmişdir. Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana ikinci rəhbərlik dövrü müstəqil dövlət quruculuğu prosesinin hərtərəfli şəkildə və böyük uğurla həyata keçirilməsi ilə səciyyələnir. ***“Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti – dövlət müstəqilliyimizi biz daima qoruyub saxlayacağıq”***, – deyən Ümummilli Liderimiz bu tarixi nailiyyətin, milli istiqlalımızın qorunub saxlanması və möhkəmləndirilməsi üçün misilsiz işlər görmüş, Vətəni və xalqı bəlalardan xilas etmişdir. 1993-2003-cü illərdə Ulu Öndər Heydər Əliyev Azərbaycanı Azərbaycana qaytarmış, müstəqilliyimizin əsl xilaskarı, hər bir vətəndaşın böyük qayğıkeşi, hamisi kimi öz sağlığında xalqın qəlbində heykəlləşmiş, əbədiləşmişdir.

***“Mən həyatım, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün, insanlar üçün yaşamışam”***, – deyən Ulu Öndərimiz Heydər Əliyev bütün ömrünü canı, qanı qədər sevdiyi, özünə əbədi qibləgah saydığı doğma Vətənə xidmətə həsr etmiş, xalqımızı nurlu səadətə qovuşdurmuşdur. Bütün zamanların ən böyük azərbaycanlısı, Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti Vətənə, xalqa şərəfli xidmətin ideal nümunəsi olduğu kimi, onun mükəmməl təlimi, konseptual nəzəri-ideoloji irsi də son dərəcə qiymətlidir.

Ümummilli Liderimiz hər bir vətəndaşın da məhz Vətənə, xalqa sədaqətlə xidmət göstərmək, layiqli vətəndaş olmaq ruhunda, milli ideyalar əsasında tərbiyəsini, mənəvi kamilliyini çox vacib vəzifə sayırdı. ***“Mən istərdim ki, hər bir şəxs öz mənəviyyatını hər şeydən üstün tutsun”***, – deyən dahi rəhbər hər bir şəxs üçün mənəvi ləyaqəti əvəzsiz keyfiyyət hesab edərək ona böyük əhəmiyyət verirdi. Həyatın mənasını mənəvi ucalığın ülviyyətində, əbədiyyətində görən dahi şəxsiyyətin dəqiq, müdrik qənaəti belədir: ***“İnsan mənəviyyat üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır”.***

Ulu Öndər Heydər Əliyevin bütün həyatı, fəaliyyəti məhz ali mənəviyyatın, əsl mənəvi ucalıq və ləyaqətin parlaq nümunəsidir. Vətənin və xalqın üzləşdiyi ən böyük çətinlikləri də məhz yenilməz iradəsi, müdrik dühası, möhtəşəm siyasəti və pak mənəviyyatı ilə dəf edən, bizi əbədi səadətə qovuşduran böyük şəxsiyyət nəsillərə nümunədir.

Böyük dahinin mənəviyyat konsepsiyasında həqiqətpərəstliyin, doğruluğun, yalanlara uymamağın da müvafiq dəyərləndirilməsi vardır. ***“Mən həmişə həqiqəti sevmişəm və həyatım da həqiqət üzərində qurulmuşdur!”*** sözləri də məhz bu qayənin nuruna boyanmışdır.

Tanrı Ulu Öndərimiz Heydər Əliyevə tükənməz yaradıcı güc, qeyri-adi istedad vermişdi. O bütün fəaliyyəti, insanlara münasibəti, uzaqgörənliyi, müdrikliyi, Vətənə bağlılığı ilə böyük bir nümunə idi. Xalqımızın böyük oğlu torpağına, Vətəninə ucalıq gətirmişdi. Həyatından artıq sevdiyi Azərbaycan uğrunda Ümummilli Liderimiz bütün manelərə, təzyiqlərə sinə gərdi, ömrünü xalqının, Vətəninin yolunda şam kimi əritdi. Ona görə ki, bir də xalqının başına bəlalar gətirilməsin, Azərbaycan daha da inkişaf etsin, müstəqilliyimiz əbədi olsun. Vətənə sədaqət, xalqa xidmət prinsipi Ulu Öndərin həyat fəlsəfəsinin qayəsini təşkil edirdi.

Ümummilli Liderimizin ölkəmizə rəhbərlik etdiyi illər tariximizə milli intibah, milli tərəqqi, milli oyanış və müstəqil dövlət quruculuğu dövrü kimi daxil olmuşdur. Xalqımızın böyük oğlunun ideyaları, amalları bu gün də Azərbaycanın yoluna işıq saçır, xalqımızı xoşbəxt gələcəyə aparır. Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın Ulu Öndər tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı Prezident cənab İlham Əliyev uğurla davam etdirir. Ümummilli Liderimizin siyasi kursu Azərbaycan Prezidenti tərəfindən daha da zənginləşdirilərək XXI əsrin mükəmməl dövlətçilik fəlsəfəsinə çevrilmişdir.

Heydər Əliyev yolundan kənarda inkişafın və müstəqil dövlət quruculuğunun mümkün olmadığını bəyan edən Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: ***“Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir... Mən bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm”.***

Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın daha xoş sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə Ulu Öndərimizin memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Bu gün Prezident cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin ideyalarından bəhrələnərək dövlətimizi, xalqımızı inamla gələcəyə doğru aparır. Dövlət başçımızın həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət nəticəsində ölkəmiz böyük uğurlar qazanmışdır. Dinamik inkişaf ictimai-sosial həyatın bütün sahələrini əhatə edir, sosial problemlər sürətlə həll edilir, insanların sosial rifahı daha da yüksəlir.

Biz bu gün qürurla deyə bilərik ki, Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Azərbaycan artıq dünyada sayılıb-seçilən ölkələrdən biridir, respublikamızda beynəlxalq toplantılar, konfranslar, Avropa səviyyəli musiqi, dünya səviyyəli idman tədbirləri keçirilir. Ölkəmizə səfər edən dövlət və hökumət başçılarının, ictimai-siyasi xadimlərin bəyanatları və çıxışları da göstərir ki, Azərbaycan regionda ən qüdrətli və lider dövlət olmaqla yanaşı, iqtisadi və siyasi göstəricilərinə, ictimai-siyasi sabitliyinə görə də inkişaf etmiş dünya dövlətləri ilə bir sırada durur.

Dünya siyasətində öz sözünü deməyi bacaran Prezidentinin olması xalqımızın böyük xoşbəxtliyidir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti özünün bütün problemlərini həll etməklə daha böyük inkişaf yolu keçərək Ulu Öndər Heydər Əliyevin bütün arzularını gerçəyə çevirir. Ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi: ***“Biz gələcəyə çox böyük ümidlərlə, böyük nikbinliklə baxırıq. Bu gün Azərbaycan güclü, inkişafda olan, müstəqil siyasət aparan dövlət kimi gələcəyə də çox böyük nikbinliklə baxır. Belə gələcəyə nikbinliklə baxmaq üçün kifayət qədər əsaslar vardır. Növbəti illərlə bağlı bizim siyasətimiz aydındır. Mən dəfələrlə müxtəlif tədbirlərdə Azərbaycanın gələcəyi ilə bağlı öz fikirlərimi xalqla bölüşmüşəm. Görülən işlər haqqında xalqa daim hesabat verirəm... Bildirmək istəyirəm ki, Azərbaycan bundan sonra da inamlı inkişaf yolu ilə gedəcəkdir. Azərbaycan beynəlxalq müstəvidə öz yerini möhkəmləndirəcəkdir və bütün beynəlxalq təşəbbüslər Azərbaycan xalqının maraqlarını müdafiə edəcəkdir”.***

**Turan MƏMMƏDLİ**




# Azərbaycanın enerji strategiyasında böyük uğur hekayəsi – Cənub Qaz Dəhlizi

Azərbaycanın müəllifi olduğu, birbaşa iştirakı ilə reallaşan nəhəng layihələr ölkəmizin nəinki regional nüfuzunu xeyli gücləndirib, onu, ümumiyyətlə, bütün dünyada hədəflərinə sadiq mühüm təşəbbüskar, etibarlı tərəfdaş kimi tanıdaraq yeni əməkdaşlıqların formalaşması üçün mühüm perspektivlər açıb. Bu baxımdan 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanan və hazırda enerji resurslarının, enerji təchizatının və tədarük bazarlarının şaxələndirilməsi nəticəsində miqyası xeyli genişləndirilən enerji strategiyasının, diplomatiyasının rolunu xüsusi diqqətə çəkmək olar. Respublikamızın qətiyyəti, təşəbbüsü ilə reallaşan və bu gün Avropanın enerji təchizatında vacib paya sahib Cənub Qaz Dəhlizi ilbəil yeni interkonnektorlar, boru kəmərləri vasitəsilə öz arealını genişləndirir, sektordakı yerini möhkəmləndirir. Başqa sözlə, kiçik zamanda ərsəyə gələn böyük layihə Azərbaycanın enerji strategiyasında əsl uğur hekayətinə çevrilməkdədir. Aprelin 4-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında iştirak edən Prezident İlham Əliyevin də dediyi kimi: ***"Cənub Qaz Dəhlizi hamımız üçün böyük uğur hekayətidir. Bu gün 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bir çox ölkələrin enerji təhlükəsizliyi üçün əsas arteriyadır. İndi o, tam gücü ilə işləyir. İstər Cənubi Qafqaz Boru Kəməri, istərsə də TANAP və ya TAP – Cənub Qaz Dəhlizinin üç ayrılmaz hissəsi tam dolu işləyir. Biz onları genişləndirməliyik".***

Bəli, XXI əsrin meqa layihələrindən sayılan, Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP kimi nəhəng layihələri özündə birləşdirən Cənub Qaz Dəhlizinin Avropa enerji bazarındakı çəkisi ağır, yeri və rolu olduqca mühümdür. 2015-ci ildən başlayaraq hər il Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində təşkil olunan görüşlər isə beynəlxalq iqtisadi münasibətlər zəminində yeni əməkdaşlıqların qurulması baxımından mühüm siyasi platforma xarakteri daşıyır. İclaslarda görülmüş işlər və qarşıda duran məsələlərin həlli istiqamətləri müzakirə olunur, müasir dövrün çağırışlarına uyğun görüləcək əlavə tədbirlər nəzərdən keçirilir. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları da bu baxımdan olduqca faydalı keçdi.

Məlum olduğu kimi, CQD-nin əsas məqsədi "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi çərçivəsində hasil edilən təbii qazın genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP vasitəsilə Türkiyəyə və Cənubi Avropaya ixracını təmin etməkdir. Təməli "Əsrin müqaviləsi"nin 20 illiyi qeyd edilən gün – 2014-cü ilin sentyabrın 20-də qoyulan, 2018-ci il mayın 29-da rəsmi açılışı olan layihənin ümumi dəyəri 33 milyard ABŞ dollarıdır. Azərbaycandan İtaliyayadək uzanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi 7 ölkənin iştirakı ilə qurulub və ilbəil yeni interkonnektorlarla bu sistemə qoşulmaq təşəbbüsləri çoxalır. Təkcə 10-cu Məşvərət Şurasından bu günə, daha dəqiq desək, cəmi bir ilə yaxın müddətdə əlavə 5 ölkə layihəyə qoşulub. Və beləliklə, Azərbaycan bu gün, ümumilikdə, 12 ölkəyə, o cümlədən də 10 Avropa ölkəsinə qaz ixrac edir ki, onlardan 8-i Avropa İttifaqının üzvüdür. Bu mənada, təsadüfi deyildir ki, ölkəmiz Aİ rəhbərləri tərəfindən "etibarlı tərəfdaş qaz təchizatçısı" kimi tanınır. Təqdirəlayiq haldır ki, Avropa ölkələri hər zaman birgə əməkdaşlıqda daha çox maraqlı tərəf kimi çıxış edir, müxtəlif siyasi platformalarda, liderlərin, nümayəndə heyətlərinin respublikamıza işgüzar səfərləri çərçivəsində, iqtisadi əməkdaşlıq təşkilatlarının forumlarında, görüşlərdə enerji hasilatını artırmaq üçün təkliflər səsləndirirlər. Məhz bütün bu təkliflərin, təşəbbüslərin məntiqi nəticəsi olaraq 2022-ci ilin iyulun 18-də Azərbaycan və Avropa Komissiyası arasında "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalandı, çoxtərəfli əməkdaşlığın dərinləşməsinə töhfə verən bu sənəd həm də sözügedən sahə üzrə irəliləyişin əldə edilməsində hüquqi baza rolunu oynadı. Respublikamızın bu tərəfdaşlığa verdiyi önəmin nəticəsidir ki, sənədin imzalanmasından ötən müddətdə qaz təchizatında, təxminən, 60 faizədək artım qeydə alınıb və beləliklə də, qoca qitə mavi yanacaq baxımından çətinliklə üzləşməyib. 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac etmişdirsə, bu rəqəm 2022-ci ildə 11,4 milyard, 2023-cü ildə, təxminən, 12 milyard, 2024-cü ildə isə 13 milyard kubmetr təşkil edib. Ümumilikdə, 2024-cü ildə ölkəmiz xarici bazarlara 25 milyard kubmetr qaz ötürüb. Prezident İlham Əliyev Məşvərət Şurasında qaz ixracının daha da artacağını bir daha vurğuladı: ***"Bu memorandum Avropa Komissiyasının Prezidenti və mənim tərəfimdən 2022-ci ilin ortasında imzalandı. Avropaya qaz təchizatımız 2021-ci ildə, təxminən, 8 milyard kubmetr idi. Ötən il demək olar ki, 13 milyard kubmetr oldu. Yəni bu bizim ümumi ixracatımızın, təxminən, yarısından çoxdur. Bu, 25 milyard kubmetrdir və bundan sonra da artacaq. Bu gün həmin həcm artıq kifayət qədər çoxdur. Yeni yataqları əlavə etmək və mövcud qaz yataqlarında hasilatı artırmaq planlarımızı nəzərə alaraq biz birmənalı olaraq istehlakçılarımıza daha çox qaz verəcəyik".***

## Otuzillik diplomatiya müasir çağırışlar zəminində yeni hədəflərə doğru

Neftlə başlayıb qazla uğurlu yoluna davam edən otuzillik Azərbaycan enerji strategiyası müasir çağırışlara uyğun olaraq öz nüfuzunu alternativ və bərpa olunan enerji mənbələri üzərindən gücləndirməkdədir. Xüsusilə də Prezident İlham Əliyevin Vətən müharibəsindən sonra, daha dəqiq desək, 2021-ci il fevralın 2-də imzaladığı Sərəncamla qəbul edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" bu sahədə konkret hədəflər müəyyənləşdirməklə ciddi irəliləyişin əldə olunmasına səbəbiyyət yaradıb. Beş milli prioritetdən biri kimi təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioritetlərinə uyğun olaraq Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın "yaşıl enerji zonası" elan edilməsi və buna müvafiq görülən işlər, icrası nəzərdə tutulan layihələr dünyanın bu sahədəki təcrübəli şirkətlərinin xüsusi marağındadır. Qarşıya qoyulan hədəflər çərçivəsində ötən müddətdə Şərqi Zəngəzur və Qarabağ ərazilərində 270 meqavatlıq su elektrik stansiyaları qurulub. Həmçinin 30-dan çox kiçik su elektrik stansiyası istismara verilib və növbəti beş ildə bu rəqəmin əlavə 30 kiçik su elektrik stansiyası ilə 500 meqavata çatdırılması nəzərdə tutulub. Məşvərət Şurasında çıxışı zamanı Prezident İlham Əliyev həmin məsələyə xüsusi toxunaraq bildirdi ki, yaşıl gündəliyə uyğun icra edilən bütün layihələrin nəticəsi olaraq Azərbaycanın 2030-cu ilə qədər 6,5 giqavatlıq enerji potensialı yaranacaq: ***"Sizi, sadəcə, məlumatlandırmaq üçün deyə bilərəm ki, bu gün Azərbaycanın yaradılmış imkanları 8 giqavatdan çoxdur. Beləliklə, biz növbəti beş il ərzində bərpa olunan mənbələrdən enerji istehsalı potensialımızı, demək olar ki, iki dəfə artıracağıq".***

Bu xüsusda onu da əlavə etmək yerinə düşər ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası"nda elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrinin payının 2026-cı ilədək 24, 2030-cu ilədək isə 30 faizə çatdırılması nəzərdə tutulur ki, bu da Avropa ölkələri ilə ikitərəfli, çoxtərəfli əməkdaşlıq platforması çərçivəsində böyük maraq kəsişməsi yaradır. Sözügedən strategiyaya əsasən alternativ və bərpa olunan enerji mənbələrindən səmərəli istifadəyə dair Azərbaycanın təşəbbüskarı olduğu ən nəhəng layihələrdən biri də, şübhəsiz, Avropanı "yaşıl enerji" ilə təmin edən əsas kanal kimi Qara dənizin dibi ilə 1100 kilometr uzunluğunda sualtı kabelin çəkilməsi olacaq. Bu məqsədlə 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bununla da Azərbaycan Avropaya "yaşıl enerji" körpüsü salmağı hədəfləyib.

Böyük maliyyə vəsaiti tələb edən həmin layihələrin reallaşması yönündə atılan addımlar isə Azərbaycanın balanslı və məqsədyönlü enerji strategiyasından irəli gəlir. Bildiyimiz kimi, neft-qaz tükənə bilən resurs olduğu üçün iqtisadiyyatın dayanıqlığını təmin etmək məqsədilə bu sektordan asılılığın aradan qaldırılması vacib amildir. Bütün bunları nəzərə alan dövlətimiz neft-qaz layihələrindən əldə olunan gəlirin qeyri-neft sənayesinə, o cümlədən də alternativ və bərpa olunan enerji sahəsinin genişləndirilməsinə yatırılmasını ən doğru addım kimi müəyyənləşdirib. Eyni zamanda sözügedən layihələr Avropanın enerji təhlükəsizliyinin təmini, uzunmüddətli məqsədlərə xidmət baxımından ölkələrin tanınmış şirkətlərini də sərmayədar olaraq hərəkətə gətirir. Və bu mənada, təsadüfi deyildir ki, artıq üçüncü ildir, Cənub Qaz Dəhlizi Məşvərət Şurası ilə yanaşı, eyni vaxtda Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin iclasları keçirilir, bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsinə dair məsləhətləşmələr aparılır. Hər iki Məşvərət Şurasının eyni anda təşkili həm də Azərbaycanın dünyada faydalı qazıntı yataqları olan və olmayan ölkələr arasında ayrı seçkilik yaratmaq istəyən dairələrə ünvanlandığı mühüm mesajdır. Elə ötən ilin noyabr ayında Bakının ev sahibliyi etdiyi COP29-da respublikamızın əsas məqsədi enerjiyə dair balanslı inkişafın vacibliyini dünya ictimaiyyətinin diqqətinə çatdırmaq idi. Cənub Qaz Dəhlizi Məşvərət Şurasında Prezident İlham Əliyevin də dediyi kimi: ***"Ümid edirik ki, Avropada çox geniş yaşıl gündəliyə baxmayaraq, faydalı qazıntı hasilatçıları və ənənəvi yanacaq enerji təhlükəsizliyinin mühüm meyarı kimi yaddan çıxmayacaq və ayrı-seçkiliyə məruz qalmayacaq. Əslində, bu bizim COP29-dakı mesajımız idi. Azərbaycan qlobal beynəlxalq tədbirə ev sahibliyi etdiyi zaman qeyd olundu ki, faydalı qazıntıları zəngin olan ölkələrlə sərvətləri olmayan ölkələr arasında ayrı-seçkilik və ayırıcı xətlər olmamalıdır. Əksinə, faydalı qazıntıları zəngin olan və bərpa olunan enerjiyə sərmayə qoyan ölkələr alqışlanmalıdır, onlara hücum çəkilməli deyil".***

Ümumi, yekun fikir olaraq onu qeyd etmək olar ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları ənənəvi və bərpa olunan enerji sahələrində əməkdaşlığın genişləndirilməsinə dair mühüm məsələlərin müzakirəsi, dünya ictimaiyyətinə ciddi mesajların ötürülməsi baxımından faydalı, məhsuldar keçdi. Azərbaycan və Avropa İttifaqı daxil olmaqla, 24 ölkə, 7 beynəlxalq maliyyə institutunun, 42 enerji şirkətinin qatıldığı bu toplantı respublikamızın dünya enerji diplomatiyasındakı rolunun mühümlüyünü, gücünü ortaya qoydu, enerji strategiyasının növbəti uğuru kimi tarixə düşdü.

**"Şərq qapısı"**



# Azərbaycan Avropanın etibarlı enerji tərəfdaşıdır

Suveren Azərbaycan Respublikasının iqtisadi potensialı və müstəqil xarici siyasət imkanları artdıqca dünya ölkələri, xüsusilə də məlum münaqişələr fonunda ağır sınaqlar dövründən keçən Avropa ilə etibarlı enerji və nəqliyyat-logistika tələbatının ödənilməsi üzrə qurduğu tərəfdaşlıq öz bəhrəsini verməkdədir. Bu gün hər iki tərəf, həm Azərbaycan, həm də Avropa üçün qarşılıqlı faydalı olan iqtisadi əməkdaşlığın hər yeni fazası ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu və dolayısı ilə dostlarının da sayını artırmaqdadır. Aprelin 4-də Bakıda, “Gülüstan” sarayında keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarına qatılmış Avropa İttifaqının energetika və mənzil tikintisi komissarı cənab Dan Yorgensen, həmçinin 24 ölkə, 7 beynəlxalq maliyyə institutu və 42 enerji şirkətinin təmsilçiləri ilə görüşdə dövlət başçımız Prezident cənab İlham Əliyevin gündəmə dair çıxışında bu reallıqlar bir daha ortaya qoyuldu.

2015-ci ilin fevral ayından etibarən keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlər toplantısının budəfəki tədbiri də ölkələrin enerji təhlükəsizliyi ilə enerji keçidi arasında uzlaşmanı gücləndirmək üçün aparılan müzakirələr baxımından səmərəli oldu. Azərbaycan tərəfindən başlanmış və Avropa Komissiyası tərəfindən dəstəklənmiş bu vacib toplantıda tərəflər arasında əməkdaşlığı gücləndirməyin vacibliyi, tərəflərin və maliyyə institutlarının üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin zərurəti bir daha vurğulandı.

Avropanın enerji təhlükəsizliyinin təmin olunması, “yaşıl enerji” gündəliyinin çox aktual olduğu bu günlərdə qoca qitənin təbii qaz təminatının da zəmanət altına alınması və bundan bir siyasi alət kimi istifadə olunmaması kimi aparılan dialoq isə burada Azərbaycanın Avropa üçün nə qədər etibarlı tərəfdaş olduğunu bir daha göstərdi. Şübhəsiz, bu gün 8-i Avropa İttifaqının üzvü olmaqla, 10 Avropa ölkəsinə, toplamda isə 12 ölkəyə çatdırılan Azərbaycan qazı “yaşıl enerji”yə keçid istiqamətində həssas dönəm yaşayan ölkələr üçün olduqca həyati əhəmiyyətli olub, sənayenin və iqtisadi artımın davamlılığını təmin etmək üçün çox vacibdir.

Dövlət başçımızın bu tədbirdə qeyd etdiyi kimi, istər Cənubi Qafqaz Boru Kəməri, istərsə də TANAP və ya TAP olsun, Cənub Qaz Dəhlizinin üç ayrılmaz hissəsi tam güclə işləməklə bu davamlılığı təmin etməkdədir. Bunu gələcəkdə də təmin edə bilmək üçün Azərbaycanın mövcud və potensial qaz ehtiyatları vardır. Qarşı tərəfin isə üzərinə düşən vəzifə, şübhəsiz, bu böyük layihənin daha uzunmüddətli və mənfəətli ola bilməsi üçün lazımi maliyyə dəstəyini göstərməsidir. Bütün bunlar Azərbaycanın dövlət siyasətinin bir hissəsidir və dövlət başçımızın da qeyd etdiyi kimi, ölkəmiz faydalı qazıntıları zəngin olan ölkələrlə sərvətləri olmayan ölkələr arasında ayrı-seçkilik və ayırıcı xətlərin olmamasına, əksinə, faydalı qazıntıları zəngin olan və bərpa olunan enerjiyə sərmayə qoyan ölkələrin alqışlanmasına həmişə dəstək verir.

Azərbaycan isə bu günə qədər tərəfdaş ölkə kimi Cənub Qaz Dəhlizinə sərmayə qoymaqla enerji sahəsində Avropadakı strateji tərəfdaşlarına qarşı öhdəliklərini tam yerinə yetirib. Belə ki, bu mühüm tədbirdə Prezident cənab İlham Əliyevin də vurğuladığı kimi: ***“Azərbaycan və Avropa Komissiyası energetika sahəsində strateji tərəfdaşlıqla bağlı memoranduma imza atdıqdan sonra Avropaya qaz təchizatımız, təxminən, 60 faiz artdı. Bu memorandum Avropa Komissiyasının Prezidenti və mənim tərəfimdən 2022-ci ilin ortasında imzalandı. Avropaya qaz təchizatımız 2021-ci ildə, təxminən, 8 milyard kubmetr idi. Ötən il, demək olar ki, 13 milyard kubmetr oldu. Yəni bu bizim ümumi ixracatımızın təxminən yarısından çoxdur. Bu, 25 milyard kubmetrdir və bundan sonra da artacaq”.*** Ötən il COP29-a uğurla ev sahibliyi etmiş Azərbaycan hədəfində olan “yaşıl enerji”yə keçidlə daha çox təbii qaza qənaət etmək imkanı əldə edərsə, o zaman ölkəmiz enerji təhlükəsizliyi baxımından tərəfdaşları üçün daha mühüm rol oynayacaq. Dövlət başçımız tərəfindən vurğulanan bu fikir də ölkəmizin hədəflərini bir daha ifadə etdi.

“Yaşıl enerji”yə keçid isə karbohidrogen ehtiyatları ilə zəngin Azərbaycan üçün daha geniş hədəfdir. Belə ki, Xəzərdəki külək, Qarabağ, Şərqi Zəngəzurdakı hidro, Naxçıvanda və Abşerondakı günəş enerjisi potensialından istifadə ilə 2030-cu ilə qədər 6,5 giqavatlıq “yaşıl enerji” potensialı hasil edəcək Azərbaycanın bu gün yaradılmış imkanları 8 giqavatdan çoxdur. Beləliklə, ölkəmiz növbəti beş il ərzində bərpa olunan mənbələrdən “yaşıl enerji” istehsalı potensialını, demək olar ki, iki dəfə artıracaq. Başqa sözlə, bu gün Avropaya metan ixrac edən Azərbaycan sabah kabellərlə “yaşıl enerji”sini də ixrac etməyi planlaşdırır. Bütün bunlar isə 2030-cu ilə qədər 1500 giqavatlıq enerji saxlama gücünü və 25 milyon kilometrlik elektrik enerjisi şəbəkəsi infrastrukturunu yaratmaqla bu dövrə qədər dünya səviyyəsində enerji səmərəliliyini iki dəfə və bərpa olunan enerji həcmini isə üç dəfə artırmaq kimi qarşıya qoyulmuş qlobal məqsədlərə ölkəmizin verəcəyi çox mühüm töhfələr olacaq. Nəticədə, Azərbaycan 2030-cu ilədək qlobal metan emissiyalarının 30 faizədək azaldılması öhdəliyini götürmüş 160 ölkədən biri olaraq 2050-ci ilə qədər iqtisadiyyatlarını iqlim neytrallığı istiqamətində inkişaf etdirmək istəyən ölkələrin də ən yaxşı tərəfdaşlarından biri olacaq.

**“Şərq qapısı”**

## Azərbaycanın enerji diplomatiyası beynəlxalq arenada rolunu daha da gücləndirir

Aprelin 4-də Bakı Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarına ev sahibliyi etdi. 2015-ci ilin fevral ayından etibarən keçirilən bu tədbir artıq 3-cü ildir ki, həm də “yaşıl enerji” məsələlərini əhatə edir. Bu da ondan xəbər verir ki, Azərbaycan ənənəvi enerji sahələrində olduğu kimi, Avropaya “yaşıl enerji”nin ixracı ilə də bağlı etibarlı təməllər yaradır.

Azərbaycanın enerji diplomatiyası ölkənin beynəlxalq arenada mühüm rolunu daha da gücləndirməklə və geosiyasi müstəvidə təsirli vasitəyə çevrilərək ön plana çıxır. Bu sahədəki ən önəmli təşəbbüs isə, şübhəsiz, Cənub Qaz Dəhlizi layihəsidir. 11-ci Cənub Qaz Dəhlizi Məşvərət Şurası və 3-cü Yaşıl Enerji Məşvərət Şurası nazirlərinin toplantısının Bakıda keçirilməsi Azərbaycanın regional və qlobal enerji siyasətindəki strateji əhəmiyyətini bir daha bütün dünyaya nümayiş etdirdi. Bu toplantılar yalnız enerji təhlükəsizliyi məsələlərini müzakirə etməkdən ibarət deyildi, onlar ölkələr arasında etimadın möhkəmləndirilməsi, strateji tərəfdaşlığın inkişaf etdirilməsi və çoxvektorlu enerji bazarının təməlini qoyan fundamental bir platforma kimi fəaliyyət göstərdi.

Prezident İlham Əliyevin konfransdakı çıxışında səsləndirdiyi fikirlər Azərbaycanın enerji diplomatiyasının həm iqtisadi, həm də geosiyasi cəhətdən necə əhəmiyyətli bir vasitəyə çevrildiyini göstərdi. Azərbaycanın geosiyasi mövqeyi bu gün enerji təhlükəsizliyinin təmin edilməsi və regional sabitliyin, beynəlxalq əlaqələrin gücləndirilməsi ilə bağlıdır. Prezident İlham Əliyev öz çıxışında ***“Cənub Qaz Dəhlizi Məşvərət Şurası 11-ci dəfədir, Bakıda toplaşır. Azərbaycan tərəfindən başlanmış və Avropa Komissiyası tərəfindən dəstəklənmiş bu vacib toplantı enerji təhlükəsizliyi sahəsində yanaşmaların formalaşdırılmasında, həmin məsələlərin həllində və birgə səylərimizin əlaqələndirilməsində mühüm rol oynamışdır. Həmçinin bu gün birgə foto çəkdirdiyimiz zaman söylədim ki, bəlkə də, daha çox yer lazım olacaq, çünki komanda genişlənir. Bu isə əməkdaşlığın çox yaxşı təzahürüdür. Vaxt keçdikcə prosesdə iştirak edən ölkələrin və şirkətlərin sayı artır, onlar ortaq məqsəd ətrafında birləşir”,*** – deyərək Cənub Qaz Dəhlizi layihəsinin coğrafi və siyasi cəhətdən daha da genişlənməkdə olduğunu vurğuladı. Bu ifadə Azərbaycan üçün enerji təhlükəsizliyi məsələsinin yalnız regional bir məsələ olmadığını, Avropa və digər regionlarda strateji təsir yaratmaq baxımından mühüm bir vasitə olduğunu göstərir.

Azərbaycan qlobal beynəlxalq tədbirə ev sahibliyi etdiyi zaman qeyd olundu ki, faydalı qazıntıları zəngin olan ölkələrlə sərvətləri olmayan ölkələr arasında ayrı-seçkilik və ayırıcı xətlər olmamalıdır. Əksinə, faydalı qazıntıları zəngin olan və bərpa olunan enerjiyə sərmayə qoyan ölkələr alqışlanmalıdır, onlara hücum çəkilməli deyil. Bu tədbir, eyni zamanda Azərbaycanın malik olduğu enerji resurslarından səmərəli istifadə edərək etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsində öz sözünü dedi.

Məşvərət Şurası çərçivəsində regional və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın sistemli formatda davam etməsi enerji sahəsində çoxtərəfli diplomatiyanın inkişaf etdiyindən xəbər verir. Bu həmçinin Azərbaycanın təkcə iqtisadi aktor kimi deyil, diplomatik lider kimi də çıxış etdiyini göstərir.

**Şəhla ƏHMƏDOVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

## Enerji diplomatiyasında yeni mərhələ

Hazırkı dövrdə ölkəmizin beynəlxalq aləmdə rolunu gücləndirən, o cümlədən geosiyasi arenada təsirli vasitəyə çevirən əsas amillərdən biri enerji diplomatiyamızdır.

Öz siyasi-iqtisadi qüdrətini tam təmin edən Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Sirr deyil ki, bütün bunların fonunda ölkəmizə maraq artır, Azərbaycan beynəlxalq və regional əməkdaşlıq üfüqlərində vacib aktora çevrilir. Əlbəttə, dünyada davam edən münaqişələrə, təhdidlərə rəğmən ölkəmiz milli maraqlara söykənən xarici siyasətini uğurla həyata keçirir, iriçaplı iqtisadi layihələrini ustalıqla gerçəkləşdirə bilir.

Şübhəsiz ki, bu uğurlarımız Prezident İlham Əliyevin yürütdüyü mükəmməl siyasəti ilə ən yüksək səviyyədə davam edir. Məhz Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan təşəbbüslərin, beynəlxalq layihələrin müəllifi və fəal iştirakçısı kimi dünyanın diqqət mərkəzindədir.

11-ci Cənub Qaz Dəhlizi Məşvərət Şurası və 3-cü Yaşıl Enerji Məşvərət Şurası nazirlərinin toplantısının məhz Bakıda keçirilməsi regional və qlobal enerji siyasətimizdəki strateji əhəmiyyəti bir daha bütün dünyaya bəyan etdi. Ölkə başçısı İlham Əliyevin konfrans zamanı səsləndirdiyi fikirlər, verdiyi mühüm mesajlar geosiyasi baxımdan böyük əhəmiyyət kəsb etdi. Prezident Cənub Qaz Dəhlizi Məşvərət Şurasının fəaliyyətinə toxunaraq qeyd etdi ki, bu qurum artıq 11-ci dəfədir, Bakıda toplaşır. Azərbaycan tərəfindən başlanmış və Avropa Komissiyası tərəfindən dəstəklənmiş bu vacib toplantı enerji təhlükəsizliyi sahəsində yanaşmaların formalaşdırılmasında, həmin məsələlərin həllində və birgə səylərimizin əlaqələndirilməsində mühüm rol oynamışdır.

Dövlət başçımız əməkdaşlığın gücləndirilməsindən danışaraq enerji təhlükəsizliyinə sistemli yanaşmanın, eyni zamanda yaşıl gündəmin dövlət prioritetinə çevrilməsinin vacibliyini vurğuladı. Prezident çıxışında üç əsas məsələyə – yeni hasilat imkanlarına, Avropa ilə enerji əməkdaşlığına və bərpa olunan enerji sahəsinin inkişafına toxunaraq daha böyük addımların atılmağının zəruriliyini bildirdi.

Prezident İlham Əliyev Avropa Komissiyasının da etiraf etdiyi kimi, ölkəmizin enerji sahəsində etibarlı tərəfdaş olduğunu bəyan edərək bildirdi ki, Azərbaycanın təbii qazı 12 ölkəyə çatdırılır. Onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqının üzvüdür. Ölkəmiz Avropada qaz təchizatının coğrafiyasını birmənalı olaraq genişləndirmək niyyətindədir. Beləliklə, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları həm regional, həm də qlobal səviyyədə enerji təhlükəsizliyinin gücləndirilməsi üçün önəmli platforma kimi son dərəcə effektli alındı. Eyni zamanda enerji təhlükəsizliyi və enerji keçidi arasında uzlaşmanı gücləndirmək baxımından göstərilən uğurlu səylərin növbəti mühüm mərhələsi kimi yadda qaldı.

Cənab Prezidentin bildirdiyi kimi, əminik ki, Azərbaycan tərəfindən başlanmış və Avropa Komissiyası tərəfindən dəstəklənmiş bu vacib toplantı enerji təhlükəsizliyi sahəsində yanaşmaların formalaşdırılmasında, həmin məsələlərin həllində və birgə səylərimizin əlaqələndirilməsində mühüm rol oynamaqda davam edəcəkdir. Təbii ki, belə mühüm toplantılar yalnız enerji təhlükəsizliyi ilə bağlı məsələləri müzakirə etmək üçün deyil, eyni zamanda strateji tərəfdaşlığın və qarşılıqlı əlaqələrin inkişafı baxımından da böyük əhəmiyyət kəsb edir.

**Xumar MƏMMƏDOVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Dövlət Universitetinin dosenti*



# Beynəlxalq forumun mühüm mesajı:

## “Cənubi Qafqazda ayırıcı xətlər yaratmaq istəyən qüvvələrin səyləri uğurla nəticələnməyəcək”




(əvvəli 1-ci səhifədə)

Uğurlu diplomatiyanın nəticəsidir ki, respublikamız bu gün Cənub Qaz Dəhlizi kimi nəhəng layihə ilə Avropanın enerji təhlükəsizliyinə ciddi töhfələr verir, eyni zamanda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun, digər bir deyişlə Orta Dəhlizin əsas tranzit funksiyasını yerinə yetirməklə Avropa ilə Asiya arasında ticarət körpüsü salır. COVID-lə mübarizədə ədalətli, COP29-a ev sahibliyi etməklə isə sağlam dünya naminə bəşəriyyəti birliyə səsləyən Azərbaycan Şərqdən Qərbə, Şimaldan Cənuba sülh, təhlükəsiz əməkdaşlıq yolu açır, ölkələrarası barışığa nail olur. O cümlədən müasir dövrün çağırışlarına uyğun “yaşıl enerji”dən istifadənin genişləndirilməsi üçün Qara dəniz enerji kabeli (“Black Sea Energy”) layihəsinin reallaşması yönündə vacib təşəbbüslərlə çıxış edir, regional və milli enerji təhlükəsizliyinin gücləndirilməsi üçün yeni perspektivlər yaradır. Bütün bunlar ölkəmizin malik olduğu coğrafi mövqedən, potensialdan lazımınca faydalanmasından, səmərəli addımlar atmasından irəli gəlir. Başqa sözlə, Azərbaycan nümunəsi göstərir ki, siyasi-iqtisadi nailiyyət təkcə ərazi yerləşməsi, əlverişli imkanlar baxımından deyil, həm də qətiyyətli mövqe ortaya qoymaqla, məharətli diplomatik gedişlər etməklə əldə edilir. Bu xüsusda Orta Dəhlizin ayrılmaz parçasına çevrilən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin reallaşması prosesini də diqqətə çəkmək olar, hansı ki vaxtilə dünyanın ən güclü ölkələri bu təşəbbüsə qarşı çıxmışdı, reallaşmasına manea yaradırdı. Ancaq respublikamızın qətiyyətli mövqeyi sayəsində yol çəkildi və bu gün həmin dövlətlər təqdim olunan layihənin rentabelliyini yüksək qiymətləndirir, böyük maraq göstərirlər. İlbəil BTQ üzərindən yükdaşımaların artması zamanında atılan addımın mötəbərliyindən xəbər verir. Lakin təəssüf ki, Avropada hələ də Azərbaycanın qazandığı həm siyasi, həm də iqtisadi nailiyyəti qəbul etməyən, qələbəni gözü götürməyən bəzi qüvvələr vardır. Prezident İlham Əliyev beynəlxalq forumda İsveçdən olan Svante Kornellinin sualını cavablandıran zaman bu məsələyə bir daha toxunaraq göstərilən ədalətsiz səylərin heç bir uğurlu nəticə verməyəcəyini vurğuladı. Sitat: ***“Biz indi istər Avropa İttifaqı və ya Amerika Birləşmiş Ştatları olsun, istərsə də digər beynəlxalq təşkilatlar olsun, Qərbdən Mərkəzi Asiyaya və əlbəttə ki, həmin regionla uzunmüddətli əməkdaşlığın qurulmasının planlaşdırılmasına böyük marağın olduğunu bilirik. Azərbaycanın nəzərə alınmamasının mümkünsüz olduğunu anlamaq üçün, sadəcə, xəritəyə nəzər salmaq kifayət edər. Baxmayaraq ki, Avropada Azərbaycanı nəinki bu prosesdən ayırmağı, eyni zamanda Qafqazda, xüsusilə Cənubi Qafqazda ayırıcı xətlər yaratmaq istəyən bəzi qüvvələr var. Lakin bu səylər, əlbəttə ki, uğurla nəticələnməyəcək. Çünki Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında nəinki coğrafiya, eyni zamanda siyasi, iqtisadi, mədəni əlaqələr tərəfdaşlığın bu unikal ab-havasını yaradır”.***

Bəli, bu gün Azərbaycanın yeni dünya nizamının formalaşdırılması üçün siyasi, iqtisadi münasibətlərin tənzimlənməsində, əməkdaşlıqların qurulmasında ortaya qoyduğu mövqe birmənalıdır, sülhə, təhlükəsizliyə xidmət missiyasıdır, hər hansı pozucu, manipulyator vasitəçinin müdaxiləsinin yolverilməz olduğunu aydın şəkildə bəyan edir. Bu, təsadüfi deyil. Çünki ölkəmizin bununla bağlı zəngin təcrübəsi var, necə deyərlər, dövlətimizin, xalqımızın vasitəçi məsələsindən çəkdiyi əziyyətlər az olmayıb. Keçmiş münaqişə məhz ATƏT-in Minsk qrupu kimi heç bir aktiv, praktik fəaliyyəti olmayan vasitəçi qurumun sayəsində otuz il ərzində dondurulub, həllini tapmayıb. Və bu gün Avropadakı bəzi dırnaqarası siyasi dairələr, təəssüf ki, həmin qurumun ləğv edilməməsində maraqlıdır və onların dəstəyinə güvənən Ermənistan da səhv istiqamətdə addımlar atmaqda davam edir.

Son 5 illik regional hərbi-siyasi hadisələr göstərir ki, qarşı tərəfin, eləcə də havadarlarının siyasi manipulyasiyalarının, təxribatlarının heç bir effektiv nəticəsi yoxdur və olmayacaq da. Təbii ki, Azərbaycana qarşı sərgilənən bu düşmənçilik münasibəti həm də ümumən, Cənubi Qafqazın yeni dünya nizamının formalaşması prosesindəki roluna, yeni düzənə inteqrasiyasına kölgə salmaqdadır. Halbuki bu bölgənin iki ölkəsi – Azərbaycanla Gürcüstan arasında əlaqələr yüksək səviyyədədir və münasibətlər zəminində birgə uğurlu layihələr ərsəyə gəlir. Ancaq görünən odur ki, Ermənistan vəziyyətin uzun müddət stabil qalmasında maraqlı deyil, sülhdən boyun qaçırmaq üçün müxtəlif bəhanələrin arxasına sığınmaqda, beləliklə də, regiondakı müsbət dəyişikliklərdən, əməkdaşlıqlardan kənarda qalaraq dalan ölkəyə çevrilməkdə israrlıdır. Tramp administrasiyasının qələbəsindən məyus olan haylar transsərhəd çayları, xüsusilə Araz çayını çirkləndirməklə acıqlarını yenə ənənələrinə uyğun şəkildə çıxmağa çalışır, terror əməllərindən əl çəkməyəcəklərini açıq şəkildə bəyan edirlər. Fransa hökuməti və Avropa İttifaqında ermənipərəst siyasətə əməl edənlərin tutduqları yoldan çəkilməmələri, Blinken vəzifədə olarkən Dövlət Departamenti tərəfindən yaradılmış qara təbliğatın hələ də davam etməsi, Ermənistanda geniş vüsət almış militarizasiya prosesi, bu ölkənin ölümcül silahlarla təchiz olunması yeni münaqişə ocağını alovlandıraraq qarşı tərəfi uçuruma sürükləməklə acı təəssüf hissi doğurur. Azərbaycan isə bütün bu proseslərə qarşı ayıq-sayıqdır, 30 illik işğalı qətiyyən unutmur, hələ də davam edən “böyük Ermənistan” xəyallarını, Qarabağı yenidən geri almaq xülyasının mövcudluğunu görür və buna müvafiq addımlar atır. Respublikamızın qalib ölkə kimi sülh prosesi üçün istəklərinə gəldikdə isə məlum olduğu üzrə bu legitim qərarlar beynəlxalq hüquqa əsaslanır, yəni əgər qarşı tərəf ölkəmizin ərazi bütövlüyünü tanıyırsa, o zaman konstitusiyaya dəyişiklik etməli, ATƏT-in Minsk qrupunun de-yure ləğvinə razı olmalıdır. Prezident İlham Əliyev beynəlxalq forumda Amerika Birləşmiş Ştatları və İsraildən olan nümayəndə Brenda Şafferin bu barədə sualına aydınlıq gətirərək bir daha həmin məsələdə ölkəmizin dəyişməz mövqeyini ortaya qoydu: ***“Əgər Ermənistan hökuməti bəyan etdikləri kimi münaqişənin bitdiyini və Qarabağın Azərbaycanın bir hissəsi olduğunu hesab edirsə, Minsk qrupunun hüquqi olaraq buraxılmaması üçün heç bir səbəb yoxdur. De-fakto olaraq qrup fəaliyyət göstərmir, lakin rəsmi olaraq Minsk qrupunun buraxılması üçün Azərbaycanla birlikdə birgə müraciəti imzalamaqdan imtina etmək onların öz vaxtını gözləməsinə işarə edir. Ola bilsin onlar bəzi dəyişiklikləri, onlara üstünlüklər verən müəyyən beynəlxalq vəziyyəti gözləyirlər”.***

Ümumilikdə, aprelin 9-da ADA Universitetində keçirilən, 44 ölkədən rekord sayda – 80-dən çox beynəlxalq ekspertin, beyin mərkəzlərinin nümayəndələrinin iştirak etdiyi beynəlxalq forum mövzu aktuallığı, müxtəlif geosiyasi məsələlərin həllinə dair özünəməxsus yanaşmanın ortaya qoyulması ilə diqqəti çəkdi, eyni zamanda Azərbaycanın yeni dünya nizamının formalaşması prosesindəki aktiv iştirakının göstəricisinə çevrildi. Ünvanlanan suallar əsasında ikitərəfli, çoxtərəfli münasibətlərin inkişaf parametrlərinə, münaqişə və müharibələrin qaranlıq məqamlarına aydınlıq gətirən Prezident İlham Əliyev ölkəmizin Avrasiya məkanındakı mühüm siyasi, iqtisadi roluna diqqəti çəkdi, gündəliyə dair yeni əməkdaşlıq perspektivlərini açıqladı. Forum həm də bir gün əvvəl iştirakçıların Qarabağa, Xankəndiyə səfərinin təşkili ilə Azərbaycanın bölgədə ədalətli düzəni bərqərar etmək, yeni dünya nizamına doğru irəliləmək üçün hansı çətinliklərlə üzüzə qaldığını, həqiqətləri, ölkəmizin qarşıdakı hədəflərinə dair fəaliyyət prinsiplərini bir daha əyani şəkildə dünya ictimaiyyətinin nəzərinə çatdırmağa imkan yaratdı.

**Nail ƏSGƏROV**

---

**Baş redaktordan**

**Sara ƏZİMOVA**

## Keçirilən forum Azərbaycanın beynəlxalq əlaqələrdəki artan gücünün simvolu oldu




Dünya hər an dəyişir və yeni çağın tələbləri hər bir ölkənin beynəlxalq arenada mövqeyini daha da möhkəmləndirməsini zəruri edir. ADA Universitetində keçirilən ölkə başçısı cənab İlham Əliyevin iştirak etdiyi “Yeni dünya nizamına doğru” forumunu bir vətəndaş və bir jurnalist olaraq böyük qürurla izlədim. Sevindim ki, dövlətimiz keçmişin sükutunu pozaraq gələcəyin zəfərini hazırlamaq yolunda addımlarını daha da gücləndirir. Hər bir ölkə bu qlobal dəyişikliklər fonunda öz mövqeyini qorumağı və inkişaf etdirməyi bacarmalıdır.

Forumu efirdən izləyərkən Azərbaycanın beynəlxalq səhnədəki rolunun daha da gücləndiyinin bir daha şahidi olduq. Bu yalnız müzakirələr üçün bir platforma olmaqla kifayətlənmədi, həm də Azərbaycanın beynəlxalq əlaqələrdəki artan gücünün və təsirinin simvoluna çevrildi. Dövlət başçısının rəhbərliyi altında ölkəmizin dünya miqyasında mühüm bir aktor olaraq mövqeyini hər gün daha da möhkəmləndirdiyini bir daha hiss etdik.

Bu forum yalnız Azərbaycanın güclənən beynəlxalq mövqeyini deyil, həm də ölkəmizin gələcəyə doğru atdığı əhəmiyyətli addımları göstərdi. Bütün bu uğurlar bizi bir vətəndaş olaraq qürurlandırır və Azərbaycanın dünya miqyasında daha böyük bir rol oynamasına olan inamımızı artırır. Ölkəmiz hər zaman daha da inkişaf edən, beynəlxalq münasibətlərdə söz sahibi olan bir güc olaraq irəliləyir.

Başçımızla, dövlətimizlə, xalqımızla qürur duyduğumuzu hər zaman hiss edirik. Bu qürur, sadəcə, siyasi mövqelərlə deyil, Azərbaycanın daim inkişaf edən və öz vətəndaşlarına daha yaxşı gələcək bəxş etməyə çalışan bir dövlət olaraq hərəkət etməsi ilə bağlıdır. Bir sözlə, Azərbaycana baxarkən ölkəmizin sabahı üçün ümid və inam hiss edirik. Bu yalnız mövcud uğurların nəticəsi deyil, həm də gələcəyin nizamına hazırlığın, müstəqil və strateji siyasətin bəhrəsidir. Çünki bu gün gələcəyin nizamında Azərbaycan öz yerini yalnız möhkəmləndirməkdə deyil, həm də yeni dünya düzənindəki fəal və etibarlı iştirakçı olma yolunda irəliləməkdədir. Hər bir addım Azərbaycanın beynəlxalq əlaqələrdəki təsirini artırır və ölkəmizin qlobal səhnədəki yerini daha da möhkəmləndirir. Həm regional, həm də qlobal miqyasda Azərbaycanın artan gücü dövlətimizin yalnız iqtisadi deyil, həm də siyasi, diplomatik sahələrdəki fəallığını göstərir. Azərbaycanın müstəqil xarici siyasəti dünyaya öz mövqeyini inamla bildirməkdə davam edir və bu, ölkəmizin gələcək inkişafına olan ümidləri daha da artırır.

# Dünyaşöhrətli akademik

Hər zaman yaddaşımızda yaşayan görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın bir üstünlüyü var idi. O, insanların gözünə nur verir, minlərlə insana gözəl dünyamızı görmək sevinci bəxş edirdi. Gözlərə işıq, qəlblərə nur bəxş edən, dünyaya gəlişi bahara düşən Zərifə xanım Əliyeva elə bir bahar günündə – 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. Sağlığında xalqı üçün gördüyü işlərlə mənəvi ucalığa yüksələn görkəmli oftalmoloq-alim, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, elm adamı, habelə tibb işçisi üçün mənəviyyat, kamillik və müdriklik məktəbidir. Zəngin elmi yaradıcılıq irsi ilə Azərbaycan oftalmologiyasını dünyada tanıdan yüksək intellekt sahibi akademik Zərifə Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir.

*"Həkim xəstənin ən doğma adamıdır"*, – deyən Zərifə xanımın tibbi etika və deontologiyaya dair məqalə və əsərləri ilə yaxından tanış olduqda onun bu sahəyə dair işlərinin daha geniş miqyasda olduğu və təkcə tibbdə deyil, bütövlükdə, cəmiyyətdə insanlar arasında münasibətlərə həsr edildiyi məlum olur. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi: ***"Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə elə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın".***

Zərifə xanım Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdü. Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir.

Hələ 1949-cu ildə Moskvadan təkmilləşdirmə kursundan yenicə qayıtmış gənc Zərifə xanım nümayəndə heyətinin tərkibində Azərbaycan Oftalmologiya İnstitutunun ordinatoru kimi Naxçıvanda keçirilən səyyari seminarda öz təcrübəli həmkarları ilə bərabər iştirak etmişdir. Akademik Zərifə xanım Əliyevanın əldə etdiyi elmi və praktiki nailiyyətləri çox uğurla Naxçıvan torpağında tətbiq olunmuşdur. Zərifə xanım Əliyevanın təklif etdiyi iridodiaqnostika müayinəsi, yeni terapevtik və cərrahi müalicə üsulları Naxçıvanda geniş tətbiq edilərək yüzlərlə insanın gözünün nurunun özünə qaytarılmasına səbəb olmuşdur. Naxçıvanda oftalmologiya sahəsi ilk dövrdə mərkəzdən gələn kadrlar tərəfindən təşkil və idarə olunsa da, XX əsrin ikinci yarısında bu sahədə bacarıqlı yerli kadrlar ordusu yetişmişdir. Bu nailiyyətlərin əldə edilməsində isə akademik Zərifə xanım Əliyevanın xidmətləri unudulmazdır.

Zərifə xanım Əliyeva, eyni zamanda Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olmuşdur. Prezident İlham Əliyevin dediyi kimi: ***"Tale Zərifə xanıma elə bir insan qismət etmişdi ki, onunla tanışlığın nəticəsində Zərifə xanımın bütün həyatı dəyişmişdi. Onlar – siyasi hakimiyyətdəkilərin gözündən düşmüş keçmiş dövlət xadiminin qızı və dövlət təhlükəsizlik orqanlarının gələcək vəd edən gənc əməkdaşı bir yerdə olmaq üçün hansı sınaqlardan keçmədilər! Bu onların "şəxsi sirri"dir".***

Gözlərə işıq, qəlblərə nur bəxş edən Zərifə xanım Əliyevanın işıqlı əməlləri bu gün də xatırlanır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi: ***"Ömür yoldaşım kimi həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə, ailə həyatımı çox xoşbəxt etdiyinə görə Zərifə xanım mənim üçün çox əzizdir. O, çox istedadlı, çox sadə insan idi. Onun xatirəsi bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində əbədi yaşayacaqdır".***

**Gültəkin ƏLİYEVA**
*Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Klinik fənlər və hərbi tibb kafedrasının müdiri, dosent, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi*



# İnsanlara nur bəxş edən alim

*Deyirlər ki, hər bir böyük şəxsiyyətin arxasında bir böyük qadın dayanır. Əgər belədirsə, onda qeyd etməliyik ki, Ümummilli Lider Heydər Əliyevin arxasında iki əvəzolunmaz qadın dayanıb. Bunlardan biri onun anası İzzət xanım, digəri isə ömür-gün yoldaşı Zərifə xanım olub. Həyatda bəzən qəribə təsadüflər baş verir. Zərifə xanım Heydər Əliyevlə ailə həyatı quranda ona heç soyadını dəyişdirmək lazım olmadı, Zərifə xanım da Əliyevlərdən idi. Çox zaman belə xoşbəxt ailələrin qanı da uyğun gəlir. El arasında isə belə məsələlər məşhurdur: ərlə arvadın torpağı eyni yerdən götürülür. Yaxud gəlin ocağa çəkər. İzzət xanım oğlunu Zərifə xanım kimi tale mələyinə tapşırmışdı. Arxayın idi ki, gəlini oğluna arxa-dayaq olacaq, onu bir çox bəlalardan hifz eləyəcək. Zərifə xanım, ilk növbədə, Heydər Əliyevə ruhən, daxilən yaxın bir insan idi.*

Yüksək mədəniyyət və ürəkdən gələn səmimiyyət Zərifə xanımın əsl simasını təşkil edirdi. Bu cazibədar qadının ətraf aləmə güclü təsir göstərdiyini təsdiqləyənlərin hamısı həmin təsir gücünə izah verməkdə çətinlik çəkirlər. Onlar yalnız bunu deyə bilirlər ki, Zərifə xanımın aurası cazibədar idi, adam onunla ünsiyyətdən, təmasdan yorulmur, əksinə, ruhən zövq alırdı. Sübut olunmuş həqiqətdir ki, qadın bir şəxsiyyət kimi nə qədər böyük olursa, özünə bir o qədər az qapılır, daha artıq başqa insanların problemləri ilə yaşayır, başqaları haqqında düşünür. Zərifə xanımın da şəxsiyyətinin gücü məhz bunda axtarılmalıdır.

Hələ gənclik illərindən başqalarının problemləri onu daha çox maraqlandırırdı. Onun şəfqətli aurasından hamıya pay düşürdü. Həmin o nurun, o işığın kölgəsi onu tanıyan insanların çöhrəsində təbəssümlə qarışır. Zərifə xanımla bircə anlıq ünsiyyət saxlamış hər kəs onun xatirəsi qarşısında sonsuz hörmətini izhar etməyə bilmir.

Zərifə xanım ömrünün mənasını öz elmi axtarışlarında və ailəsində görürdü. Lakin elmi tədqiqatları da, ailə-məişət qayğıları da məhz onun şəxsiyyətinin nurunda aşkarlanırdı. Bəşər tarixinin bütün dövrlərində bütün millətlərin filosofları yorulmadan bir suala cavab tapmaq istəmişlər. Bu sual da ondan ibarət idi ki, insan öz imkanlarını tam reallaşdırmaq və bir şəxsiyyət kimi formalaşmaq üçün nə etməlidir? Bütün hallarda cavablar çoxcəhətliliyinə və müxtəlifliyinə baxmayaraq, çıxış nöqtəsi kimi şəxsiyyətin formalaşdığı ictimai mühitlə əlaqələndirilir, məhz bu istinadgaha söykənir.

Bu baxımdan yanaşdıqda Zərifə xanımın təkrarolunmaz şəxsiyyətinin də sirrini onun böyüdüyü ailə ilə əlaqələndirmək təbii sayılmalıdır. Zərifə xanım unikal bir ailədə doğulub boya-başa çatmışdı. Onun atası Əziz Əliyev haqqında Azərbaycanın ən görkəmli adamları belə yüksək fikirlər söyləmişlər.

Zərifə xanım hər şeyi kamil bacarırdı: yeri gələndə qiymətli monoqrafiyalar yazır, yeri gələndə isə ifadəli bir tərzdə susurdu. Ancaq buna susmaq da demək olmazdı, bəzən o, sükutu ilə də çox şeyi deyə bilirdi. Zərifə xanım öz xalqının həqiqi qızı kimi sadəliyi sevir, süni bəzək-düzəyə könül vermirdi. Elmin müxtəlif sahələrində çalışan alimlər insan bədənində elə bir qüvvə olduğunu ehtimal edirlər ki, orqanizmi öz-özlüyündə inkişafa təhrik edir. Həmin özünüinkişaf meyli Zərifə xanımda fövqəladə bir parlaqlıqla əksini tapmışdı, bu meyil onun ailə tərbiyəsindən irəli gəlirdi.

Elmi fəaliyyətinə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda başlayan Zərifə xanım bütün taleyini təbabətin bu sahəsi ilə bağlamışdır. Bunun özü də kifayət qədər simvolik məna daşıyır. Onun həkimlik peşəsini seçməsi də taleyin hökmü ilə baş vermişdi. Ailədə yaxşı bilirdilər ki, Zərifə xanıma xas olan keyfiyyətlərin ən güclüsü ondakı intuisiya, daxili görmə qabiliyyətidir. Və həmin bəsirət hissiyyatı da bütün ömrü boyu Zərifə xanımın istər elmi, istər praktiki həkimlik fəaliyyətində, istərsə də ailədə və ictimaiyyətlə münasibətlərdə uğur qazanmasına əsas vermişdi. İnsanlara nur paylamaq, şəfalı əlləri ilə onların gözlərinə işıq vermək bu qadının tale payı idi.

Ömür insana bir dəfə verilir. Elə yaşamalı, elə xidmət etməli ki, sən olmayandan sonra yerindəki boşluq görünsün. Elə insanlar var ki, həyatdan köçəndən sonra hər zaman böyük ehtiramla yad edilir, anılır. İnsanlar onu həmişə xoş xatirələrlə, ilıq hisslərlə yada salırlar. Bu cür insanlar hələ öz sağlıqlarında özləri üçün əbədi heykəl qoyub gedirlər. Bu mənada, Vətənə bağlı insanlar, elə-obaya bağlı adamlar, xalqa layiqli xidmət göstərənlər əbədiyyətə qovuşur, ölməzlik zirvəsinə ucalırlar.

Azərbaycan xalqının ləyaqətli övladı, nurlu əməlləri ilə, əsl vətənpərvər hissləri ilə yaşayan akademik, tibb elmləri doktoru, professor Zərifə xanım Əliyeva məhz bu dəyərli keyfiyyətlərə malik olan işıqlı, nurlu bir şəxsiyyət idi. Zərifə xanım insanların xatirində hər zaman Azərbaycan analarının təcəssümü, ideallı kimi yaşayır. Onun ən yüksək insani keyfiyyətləri bu gün bütün qadınlara örnək olmalıdır. Bu keyfiyyətlər arasında onun alicənablığı, yüksək mədəniyyəti, intellektual səviyyəsi və mehribanlığı əsas yer tuturdu.

Deyirlər, Tanrı çox sevdiyi insanları dərgahına tez qovuşdurur. Zərifə xanım da məhz Tanrının sevdiyi bəndələrindən idi. Hamı tərəfindən eyni məhəbbətlə sevilmək, bu dünyanı tərk etdikdən sonra da hər zaman minnətdarlıq hissi ilə xatırlanmaq hər kəsə qismət olan xoşbəxtlik deyil.

**Aygün RÜSTƏMOVA**
*Məqalə "Unudulmaz alim, qayğıkeş insan – Zərifə xanım Əliyeva" mövzusunda keçirilən esse müsabiqəsinə təqdim etmək üçündür.*

# Zəriflik mücəssəməsi

*O, insanları sevərdi, heç vaxt heç kimi incitməz, heç kimi naümid qoymaz, heç kimə kömək etməkdən imtina etməzdi. Ömrünü sənətinə, ailəsinə, xalqına, vətəninə sevgiyə həsr edən böyük oftalmoloq, Azərbaycanın Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyeva məhz belə şəxsiyyət idi.*

Azərbaycan xanımının mənəvi dəyərlərini özündə təcəssüm etdirən Zərifə xanım qadın, həyat yoldaşı, ana, həkim, alim, ictimai xadim olaraq elə sağlığında əfsanəviləşməyi bacarıb və daşıdığı bu titulları mərhəmət, şəfqət, humanizm kimi ali hisslərlə bütövləşdirərək əsl insanlıq zirvəsinə yüksəlib. Güclü xarakteri, əzmkarlığı, iradəsi və xeyirxahlığı sayəsində sağlığında ikən özünə canlı abidə ucaltmağı bacaran Zərifə Əliyeva Tanrının bu dünyaya göndərdiyi seçilmiş və xoşbəxt insanlardan biri idi. Nəcib, zərif xüsusiyyətli bu azərbaycanlı qadın bütün ömrünü insanları sevməyə, onların xoşbəxt, sağlam olması yolunda fədakarlıqla pərvanəyə çevrilməyə həsr etdi. Yaşadığı qısa, lakin şərəfli həyat yolunda humanizm, mərhəmət, şəfqət, qayğı daim bələdçisi oldu. Zərifə xanım, sözün əsl mənasında, insanlara nur bəxş etmək kimi müqəddəs missiyanı uğurla icra edərək neçə-neçə zülmət dünyalara işıq bəxş etdi.

Eləcə də bütün insanların, iş yoldaşlarından tutmuş alimlərə, mütəxəssislərə və sadə zəhmətkeşlərə qədər hər kəsin xoş sözlərlə, minnətdarlıq hissi ilə xatırladığı sevimli bəndəyə, Azərbaycan tarixinin əfsanəvi şəxsiyyətlərindən birinə çevrildi.

Qədim Naxçıvanın Şahtaxtı kəndində dünyaya göz açmış Zərifə Əliyeva zəngin və mənalı ömür yaşayıb. Atası – görkəmli ictimai və dövlət xadimi Əziz Əliyevin ömür yolu onun üçün əsl həyat məktəbi olub. Zərifə xanım müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin ömür-gün yoldaşı, dostu və silahdaşı idi.

Akademik Zərifə Əliyevanın tədqiqatları, alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində xüsusi mərhələ təşkil edir. Zərifə xanım bu sahənin ilk tədqiqatçısı olub. O, dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoyub. Oftalmologiya sahəsində ən mötəbər mükafat olan M.İ.Averbax adına mükafata layiq görülən ilk qadın alim idi. Dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazıb.

Zərifə xanım nursuz gözlərə işıq paylamaq, insanlara həyat eşqini qaytarmaq arzusunda idi. Görkəmli alimin parlaq xatirəsi daim anılacaq, xalqımızın qəlbində əbədi yaşayacaq.

**Aysel DÜNYAMALIYEVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

# Azərbaycan və İran nümayəndə heyətləri Zəngilanda və Naxçıvanda yol-elektroenergetika sahəsində birgə layihələrə baxış keçiriblər





Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayevin və ölkəmizdə səfərdə olan İran İslam Respublikasının yol və şəhərsalma naziri, komissiyanın İran tərəfindən həmsədri Fərzanə Sadeqin başçılıq etdiyi nümayəndə heyətləri İran ərazisi vasitəsilə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək Zəngilan rayonunun yaxınlığında Araz çayı üzərində tikintisi davam edən Ağbənd-Kələlə avtomobil yolu körpüsünə baxış keçiriblər.

Baxış zamanı həmsədrlərə körpünün və avtomagistraldan körpüyə bağlanacaq köməkçi yolun texniki parametrləri, burada yaradılması planlaşdırılan sərhəd-gömrük infrastrukturu, eyni zamanda tikilməsi nəzərdən keçirilən yeni dəmir yolu körpüsünün layihələri barədə məlumat verilib. Qeyd olunub ki, Ağbənd avtomobil körpüsünün və ona bitişik köməkçi yolun tikintisinin bu ilin sonunadək tamamlanması planlaşdırılır. Bu layihə regionun strateji nəqliyyat infrastrukturunun mühüm hissəsini təşkil etməklə bir sıra əhəmiyyətli funksiyaları yerinə yetirəcək.

Tikinti işləri başa çatdıqdan sonra yeni yol marşrutu Şərqi Zəngəzur iqtisadi rayonunu Naxçıvan Muxtar Respublikası ilə birləşdirən ən qısa və səmərəli nəqliyyat bağlantısını təmin edəcək, Çin-Mərkəzi Asiya-Azərbaycan-İran-Türkiyə xəttini əhatə edən Şərq-Qərb nəqliyyat dəhlizinin əsas komponentlərindən biri olacaq. Eyni zamanda Şimal-Cənub nəqliyyat dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsinin funksional imkanlarını genişləndirəcək, Körfəz ilə Qara dənizi birləşdirən həm relyef, həm də iqlim baxımından ən əlverişli avtomobil yolu kimi çıxış edəcək.

Tikilən avtomobil yolu I texniki dərəcəyə malik olmaqla Ağbənd-Cəbrayıl-Ağdam-Yevlax-Gürcüstan istiqamətində səmərəli yük və sərnişin daşımalarını mümkün edəcək. Paralel olaraq, təxminən, bir il ərzində tamamlanması gözlənilən Ağbənd-Laçın-Kəlbəcər-Gəncə-Gürcüstan avtomobil marşrutu da bu şəbəkəyə əlavə ediləcək və regionun nəqliyyat-logistika potensialının daha da artmasına töhfə verəcək.

Layihələrin reallaşması ikitərəfli və regional nəqliyyat-tranzit əlaqələrinin, yükdaşımaların artırılmasına, logistik imkanların genişlənməsinə və ümumilikdə, geniş kommunikasiya bağlantılarının yaradılmasına şərait yaradacaqdır.

Nümayəndə heyəti, həmçinin Azərbaycan ərazisində tikintisi sürətlə davam edən, strateji əhəmiyyətə malik Horadiz-Ağbənd dəmir yolu xətti ilə də əyani tanış oldular. Bu dəmir yolu xətti regionun əsas nəqliyyat xətlərindən biri olmaqla yanaşı, həm müxtəlif nəqliyyat kommunikasiyalarının şaxələndirilməsi həm də beynəlxalq yükdaşımaların səmərəli təşkili üçün yeni imkanlar yaradacaq.

Həmsədrlər daha sonra İran ərazisi vasitəsilə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək ikinci körpü olan Ordubad-Siyahrud avtomobil körpüsünün layihəsi və yerləşəcəyi yer üzrə ərazi imkanlarını nəzərdən keçiriblər. Körpünün koordinatlarının müəyyənləşdirilməsi və texniki parametrləri ilə bağlı təkliflər dinlənilib və bu istiqamətdə müzakirələrin davam etdirilməsi razılaşdırılıb.

Nümayəndə heyətləri, həmçinin Ordubad-Marazad Su Elektrik Stansiyası layihəsi üzrə aparılan işlərlə də tanış oldular. Bildirilib ki, Araz çayı üzərində gücü 36 MVt olan Ordubad SES-in ümumi tikinti işlərinin 60 faizi yekunlaşıb və davamı üçün İran tərəfindən işlərin aparılmasına əlavə imkanlar yaradılmalıdır. Həmsədrlər, həmçinin Culfa sərhəd-keçid məntəqəsinə də baş çəkib və məntəqənin mövcud şəraiti ilə tanış oldular.

Həmsədrlər İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizə baş tutacaq səfərinin ikitərəfli münasibətlərin inkişafında yeni səhifə açacağına əminliyini ifadə edərək iki ölkə arasında, ümumilikdə, bütün sahələr üzrə əməkdaşlıq üçün yaxşı imkanlar olduğunu və prezidentlərin tapşırığına müvafiq olaraq mövcud layihələrin başa çatdırılması istiqamətində birgə səylərin davam etdiriləcəyini qeyd ediblər.

Baş nazirin müavini 30 illik işğal müddətində ermənilər tərəfindən dağıdılan və talan edilən ərazilər barədə iranlı naziri və nümayəndə heyətini məlumatlandırıb.

# Yeni meşəlik salınması məqsədilə 3300 ədəd aylant, çinar və kızılçam tingləri əkilib



Naxçıvan Muxtar Respublikasında "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə meşəsalma tədbiri həyata keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev iştirak edib.

Tədbir çərçivəsində Pürcuvar Dövlət Meşəsinin meşə ilə örtülü olmayan hissəsində yeni meşəlik salınması məqsədilə 3 hektar sahədə 3300 ədəd aylant, çinar və kızılçam tingləri əkilib.

Məlumat üçün qeyd edək ki, regionun ekoloji balansını qorumaqda, hava keyfiyyətinin yaxşılaşdırılması və iqlim dəyişikliyi ilə mübarizədə mühüm addım hesab edilən meşəsalma və meşəbərpa tədbirləri nazirlik tərəfindən cari il ərzində davam etdiriləcəkdir.

# Cənab Prezidentin böyük etimadı qarşıya yeni vəzifələr qoyur



**Elbrus İSAYEV**
***Naxçıvan Dövlət Universitetinin rektoru***

*"Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması və səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncam ölkəmizdə elm və təhsilin sistemli və faydalı inteqrasiyasını təmin etmək üçün aparılan məqsədyönlü islahatların davamı, bu istiqamətdə atılan növbəti mühüm addımdır.*

Keçmiş sovetlər birliyində elm və təhsilin xüsusi istiqamətlər kimi bir-birindən ayrılması daim vəhdətdə olan bu sahələrin arasında əlaqənin zəifləməsinə gətirib çıxarmışdır. Bununla elmi müəssisələrdə əldə olunan mühüm nəticələri praktikaya tətbiq etmək imkanları, ali təhsil müəssisələrinin isə praktik təhsil fəaliyyətlərini nəzəri cəhətdən davamlı və sistemli zənginləşdirmək imkanları məhdudlaşmışdır. Cənab Prezidentin son illərdə elm və təhsil müəssisələrinin fəaliyyətinin inteqrasiya etdirilməsi məqsədilə imzaladığı sərəncamlar, qəbul edilən qərarlar bu boşluğu aradan qaldırmaq, ali təhsil müəssisələrinin elmi-tədqiqat imkanlarını genişləndirmək imkanı yaratmışdır. Bu addımlar atılarkən ölkədəki bir sıra ali təhsil müəssisələrinin tədqiqat universitetlərinə çevrilmə potensialı dəyərləndirilmişdir. Belə universitetlərdən biri də ölkəmizin qabaqcıl ali təhsil müəssisələrindən sayılan Naxçıvan Dövlət Universitetidir.

Cənab Prezidentin son Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilən Təbii Ehtiyatlar İnstitutu, Bioresurslar İnstitutu və Batabat Astrofizika Rəsədxanası kimi elmi müəssisələr ali təhsil müəssisəsinin elmi fəaliyyətinin zənginləşdirilməsində mühüm rol oynayacaqdır. Bu addım universitetin elmi potensialını artırmaqla yanaşı, təhsildəki keyfiyyəti daha da yüksəldəcək, eyni zamanda Azərbaycan elminin inkişafına önəmli töhfə verəcəkdir. Nəzərə almaq lazımdır ki, dünya təcrübəsində elmi-tədqiqat institutları universitetlərdə təkcə elmi tədqiqatların aparılması funksiyasını yerinə yetirmir, həm də əldə olunan nəticələrin tədris prosesinə tətbiqi baxımından mühüm yer tutur. Bu institutlar universitetlərin elmi fəaliyyətinə güc qatmaqla yanaşı, təhsil sahəsində də innovativ yanaşmaları tətbiq etməkdə böyük rol oynayır. Bu baxımdan Naxçıvan Dövlət Universitetinin strukturuna daxil ediləcək hər üç elmi müəssisədə bu prosesi uğurla yerinə yetirə biləcək elmi potensial formalaşmışdır. Bu elmi potensial Naxçıvan Dövlət Universitetinin son illərdə yüksələn elmi nəticələrini daha da zənginləşdirəcəkdir.

Qeyd etmək lazımdır ki, Naxçıvan Dövlət Universiteti son illərdə əldə etdiyi müsbət elmi nəticələrlə diqqət çəkir. Universitetin Elmi Kitabxanası 170 mindən çox kitab, monoqrafiya, dərslik, dövri nəşrlər, dissertasiyalar və digər qiymətli çap materialları ilə zəngindir. Bu resurslar tələbələr və akademik heyət üçün böyük bir elmi baza təşkil edir. 2024-cü ildə kitabxanaya 1327 adda 2596 sayda yeni kitab daxil olub və 2674 kitabın elektron forması hazırlanmışdır. Eyni zamanda tədqiqatçılara EBSCO, Clarivate şirkətinin təqdim etdiyi altı baza və Taylor&Francis kimi beynəlxalq elektron bazalara giriş imkanı yaradılıb.

2024-cü ildə universitet elmi fəaliyyətində fərqlənən əməkdaşları və doktorantları xüsusi olaraq mükafatlandırıb. Bu nüfuzlu və impakt faktorlu jurnallarda nəşr olunan məqalələrə, elmmetrik göstəricilərə, H-indeksinə və istinad saylarına əsaslanmaqla həyata keçirilib. Universitetdə diferensial əməkhaqqı tətbiq olunmaqla yanaşı, fəaliyyət göstərən elm adamları nüfuzlu bazalarda indeksləşən hər bir elmi nəşr üçün müəyyən məbləğdə maddi mükafatlarla təltif olunublar. Bu cür addımlar universitetdə elmi fəaliyyəti stimullaşdırır və akademik heyətin daha yüksək nəticələr əldə etməsinə səbəb olur.

2024-cü ildə Naxçıvan Dövlət Universiteti xarici ölkələrlə əməkdaşlığını daha da genişləndirərək Türkiyə, Özbəkistan, Qırğızıstan və Macarıstan kimi ölkələrin nüfuzlu universitetləri və elmi-tədqiqat müəssisələri ilə ikitərəfli əməkdaşlıq müqavilələri bağlamışdır. Bu əməkdaşlıqlar universitetin beynəlxalq aləmdə daha çox tanınmasına, elmi tədqiqatlarının daha geniş auditoriyaya çatdırılmasına və həmçinin beynəlxalq layihələrdə iştirakına imkan yaratmışdır.

Elmi tədqiqatların təhsilə tətbiqi, universitetlərin inkişafında mühüm rol oynayır. 2024-cü ildə universitetin alimləri tərəfindən bir sıra mühüm elmi nəticələr əldə edilmiş, bunlar monoqrafiyalar, dərsliklər, beynəlxalq və respublika jurnallarında nəşr olunmuş məqalələr kimi müxtəlif formalarda tədrisə və istehsalata tətbiq edilmişdir. Bu tədqiqatlar yalnız nəzəri biliklərin genişlənməsinə deyil, həm də praktiki fəaliyyətə yönəldilmişdir. 2024-cü ildə universitetin Scopus və Web of Science bazalarında elmi nəşrlərinin sayı xeyli artmışdır, xüsusən Scopus bazasında nəşr olunan məqalələrin sayı 2019-2023-cü ilin bu bazalardakı bütün nəşrlərinin cəmindən çoxdur. Bu, universitetin beynəlxalq elmi əlaqələrinin gücləndiyini və ölkənin elmi potensialının daha da artdığını göstərir.

Cənab Prezidentin məlum Sərəncamı 2025-ci il üçün Naxçıvan Dövlət Universitetinin elm sahəsində əsas hədəflərinin reallaşdırılmasına yeni imkanlar açır. Universitetimizin 2025-ci ildə qarşıya qoyduğu hədəflər sırasında elmi-tədqiqat mərkəzlərinin və laboratoriyaların fəaliyyətinin gücləndirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, elmi işlərin səmərəliliyinin artırılması və nəticələrin tədris və istehsalatda tətbiqinin genişləndirilməsi prioritet olaraq müəyyənləşdirilmişdir.

Beləliklə, Təbii Ehtiyatlar İnstitutu, Bioresurslar İnstitutu və Batabat Astrofizika Rəsədxanasının təhsil ocağının tabeliyinə verilməsi ölkə başçısının Naxçıvan Dövlət Universitetinə göstərdiyi böyük etimaddır. Bu, universitetin elmi inkişafını, akademik heyətin və təhsilalanların elmi potensialını və beynəlxalq elmi əməkdaşlıqlarını daha da gücləndirəcək.

Bu elmi müəssisələr universitetin elmi profilini daha da zənginləşdirməklə Naxçıvanın təbii sərvətləri, bioloji resursları və kosmik tədqiqatlarının inkişafına böyük töhfə verəcək. İnanırıq ki, Naxçıvan Dövlət Universitetinə qoşulan Təbii Ehtiyatlar İnstitutu Naxçıvanın təbii ehtiyatlarının səmərəli istifadəsi, Bioresurslar İnstitutu biomüxtəlifliyin tədqiqi və qorunması, Batabat Astrofizika Rəsədxanası isə kosmik tədqiqatlar sahəsində elmi tədqiqatları gücləndirəcək və elmimizə yeni-yeni nailiyyətlər qazandıracaqdır.

## Oxucu məktubu

### Naxçıvan Dövlət Universiteti sürətli inkişaf trendinə malikdir

*Azərbaycan Dövlət İqtisad Universiteti Elmi fəaliyyətin təşkili və idarə edilməsi departamentinin direktoru, professor Zahid Məmmədov 3-4 aprel tarixlərdə Naxçıvan Dövlət Universitetində keçirilən "Elmi inkişaf: uğurlar və çağırışlar" gənc tədqiqatçıların II Respublika Elmi Konfransı ilə bağlı öz təəssüratlarını qələmə alaraq qəzetimizin elektron poçtuna göndərib. Məktubda deyilir:*



"Naxçıvan Dövlət Universitetində 3-4 aprel tarixlərdə keçirilən "Elmi inkişaf: uğurlar və çağırışlar" adlı gənc tədqiqatçıların II Respublika Elmi Konfransı öz işini başa vurdu. Konfrans gənc tədqiqatçıların müxtəlif mövzulardakı maraqlı çıxışları ilə yadda qaldı. Lakin Naxçıvan Muxtar Respublikasının blokada şəraitində yaşadığı çətinliklərə baxmayaraq, bu şəraitdə Naxçıvan Dövlət Universitetində gördüklərim haqqında bəzi mülahizələrimi sizinlə paylaşmaq istərdim.

Bu ali təhsil ocağında yaradılmış mühit, ümumilikdə, çox müsbət və inkişaf yönümlüdür. Bu mühit həm akademik, həm də sosial baxımdan tələbələrə və müəllimlərə çoxsaylı imkanlar və şərait təqdim edir. Müəllimlər, özəlliklə Naxçıvan Dövlət Universitetinin Magistratura və doktorantura mərkəzinin direktoru, dosent Çapay Quliyev, Beynəlxalq ticarət və menecment kafedrasının müdiri, dosent Cavadxan Qasımov, İqtisadiyyat və marketinq kafedrasının müdiri, dosent Eltun İbrahimov tərəfindən elmi diskussiyalara verilən dəyər olduqca müsbət haldır. Onların hər biri ilə tanışlıq və fikir mübadiləsi çox dəyərli oldu və mənim üçün böyük bir motivasiya yaratdı. Onlar öz sahələrində peşəkar və təcrübəli şəxslərdir, bu da tələbələrə keyfiyyətli təhsil almağa imkan verir.

Naxçıvan Dövlət Universiteti tədqiqat sahəsində də önəmli addımlar atır. Burada müxtəlif elmi layihələr və konfranslar təşkil edilir. Universitetin tələbələri, müəllimlər elmi fəaliyyətlərə cəlb olunur və bu, akademik mühitin daha da zənginləşməsinə şərait yaradır. Universitetdə tələbələr yalnız təhsil almır, həm də müxtəlif sosial və mədəni fəaliyyətlərə qatılırlar. Burada müxtəlif tələbə təşkilatları, klub və cəmiyyətlər yaradılıb. Universitetin kampusu geniş və müasir texnologiyalarla təmin olunub. Tələbələr üçün komfortlu yataqxanalar və sosial məkanlar mövcuddur. Bu onların rahat və yüksək səviyyədə təhsil almasına imkan verir.

Universitetin kampusunda tələbələrin təhlükəsizliyi yüksək səviyyədə təmin olunur. Təhlükəsiz şərait və sağlamlıqla bağlı tədbirlər universitetdəki sosial mühitin vacib aspektlərindən sayılır. Universitetin tibb məntəqəsi tələbələrin səhiyyə xidmətlərini təmin edir.

Bu qədim yurd yerinin blokada şəraitində yaşadığı çətinliklərə baxmayaraq, Naxçıvan Dövlət Universiteti sürətli inkişaf trendinə malikdir. Universitet rəhbərliyi müasir təhsil və elmin inkişafını təmin etmək üçün ciddi addımlar atmış, yerli və xarici mütəxəssislər ilə əməkdaşlığa diqqət yetirmiş, akademik mühitin inkişafına nail olunmuşdur.

Naxçıvan Dövlət Universiteti təkcə Naxçıvan Muxtar Respublikasının deyil, həm də Azərbaycanın ali təhsil sisteminin inkişafında böyük rola malikdir.

Universitetdə müasir texnologiyaların tətbiq olunması, xarici ölkələrdən minlərlə tələbənin tədris prosesində iştirakının təmin edilməsi diqqətçəkicidir. Burada müasir tələblərə uyğun olan müxtəlif tədris proqramları hazırlanmış və bu sahədə mühüm irəliləyişlər əldə edilmişdir. Universitet özəlliklə muxtar respublikanın iqtisadiyyatının ehtiyaclarına uyğun yüksək səviyyəli mütəxəssislər yetişdirir. Onu da qeyd etmək lazımdır ki, universitet özünü beynəlxalq təhsil bazarında tanıda və əlaqələr qura bilmişdir. Beynəlxalq elmi tədbirlər və tədqiqat proqramları bu əməkdaşlığın genişləndirilməsinə kömək etmişdir.

Tələbələrlə keçirdiyim görüşlərin nəticəsi olaraq məndə belə qənaət yarandı ki, universitetin tələbələri ölkəmizin gələcəyinə xidmət etmək üçün böyük potensiala sahibdirlər. Universitetin təcrübəli və gənc müəllim heyəti var.

Bəhs etdiyim ali təhsil ocağı muxtar respublikanın blokada şəraitində olması ilə bağlı qarşılaşdığı çətinliklərə baxmayaraq, əhəmiyyətli inkişaf yolu keçmiş və ölkəmizin təhsil sistemində önəmli yer tutmuşdur. Bu inkişaf yolunda Naxçıvan Dövlət Universitetinin müəllim və tələbə kollektivinə uğurlar arzulayıram".

# Qars-İğdır-Naxçıvan dəmir yolu

## Avropa ilə Asiya arasında etibarlı körpü olacaq

*Qlobal güclərin yeni geosiyasi münasibətlər mərhələsinə keçdiyi bir zamanda Avropa ilə Asiya, hətta Avropa ilə Amerika arasındakı daha etibarlı kommunikasiya əlaqələrinə yaranan ehtiyac ölkələr arasında enerji, nəqliyyat və logistika şaxələndirməsinin də zərurətini artırır. Bunun daha konkret bir reallıq kimi ortaya çıxdığı Orta Dəhliz üzərində Zəngəzur dəhlizinin açılması və Çin-Avropa marşrutu üzərində yeni nəqliyyat arteriyalarının işə salınması Cənubi Qafqazın və bu regionun lider dövləti Azərbaycanın əhəmiyyətini artırır. Bu mənada, otuz il davam etmiş erməni işğalından sonra Qarabağ və Şərqi Zəngəzurda başladılan sürətli quruculuq işləri və regionda yaradılacaq davamlı sülh şəraiti fonunda Azərbaycandan keçən hər bir irimiqyaslı nəqliyyat-kommunikasiya layihələri ölkəmizin gücünü və siyasi nüfuzunu göstərir.*



Zəngəzur dəhlizinin bir hissəsi olacaq Qars-İğdır-Naxçıvan dəmir yolu, bu mənada, təkcə Türkiyə ilə Azərbaycanı deyil, eyni zamanda Avropa ilə Asiyanı daha etibarlı şəkildə bir-birinə bağlayacaq bir körpüyə, turizm və ticarət xəttinə çevriləcək. Artıq qardaş ölkənin Naxçıvana ən yaxın vilayət mərkəzi olan İğdır şəhərində işlərin aparıldığı bu irimiqyaslı nəqliyyat layihəsi Türkiyə və Azərbaycan liderlərinin ortaya qoyduqları siyasi iradənin daha bir nəticəsi kimi üfüqdə parlaq işıqla görünməkdədir. Bu dəmir yolu düşməni darmadağın edən "dəmir yumruq" iradəsinin ardınca Naxçıvanın blokadasını da qırıb parçalayacaq bir missiya kimi tarixə düşəcək, bununla da Anadoludan Uyğurustana qədər bütün böyük Türk dünyasını birləşdirəcək polad kəmərə çevriləcək.

Təkcə Azərbaycan və Türkiyə arasında ticarət yükünü deyil, həm də insanların ümidini və qlobal bazarların ehtiyaclarını daşıyacaq olan Qars-İğdır-Naxçıvan dəmir yolunun mühüm strateji və iqtisadi əhəmiyyəti vardır. Bölgədə dəmir yolu şəbəkəsinin tarixi inkişafına baxdıqda hələ 1903-cü ildən Naxçıvanda mövcud olmuş dəmir yolu xətləri təcrübəsinin Araz boyunca Anadoluya qədər uzanmasının qardaş ölkənin də strateji maraqları içərisində olduğunu deyə bilərik. Belə ki, Türkiyənin üç dövlətlə həmsərhəd olan ucqar İğdır vilayətinin inkişafı və bununla paralel olaraq Ermənistanın da blokada siyasətinin tam iflası üçün Qars-İğdır-Naxçıvan dəmir yolu ən hamar iqtisadi və siyasi həll yolu olacaq. Ümumi uzunluğu 224 kilometrə yaxın olacaq bu yol iki qardaş ölkə arasında yüklərin daha rahat və daha ucuz tariflər əsasında daşınmasına, sərnişinlərin isə daha sürətli və daha komfortlu mənzilbaşına çatmasına imkanlar yaradacaq. Bu yaxınlarda açıqlanan məlumatlara görə, 5 stansiyadan ibarət olacaq dəmir yolunda saatda 160 kilometr sürətlə hərəkət edən qatarların hərəkəti ilə gələcəkdə Orta Asiya ilə Avropa arasında sərnişin daşımalarının müddəti 18 gündən 12 günə qədər enəcək. Bu dəmir yolunun, bilavasitə, Zəngəzur dəhlizinin açılmasında bir ildə quru yolla Şərqdən Qərbə 840 milyard dollardan çox məhsul ixrac edən Çinin və bu məhsulun çatdırıldığı Avropa İttifaqı ölkələrinin böyük maraqları dayanır. Naxçıvan üçün isə gələcəkdə Vəli Dağı stansiyası ilə Ordubad arasında mövcud olan 177 kilometrlik dəmir yolu xəttinin, dolayısı ilə bütün dəmir yolu infrastrukturunun da yenidən qurulması bölgənin bütün görkəmini dəyişdirəcək hadisələrdən biri olacaq.

Qars-İğdır-Naxçıvan dəmir yolunun strateji əhəmiyyəti ilə yanaşı, onun muxtar respublika iqtisadiyyatının güclənməsi, konkret olaraq onun ixrac məhsullarının Avropa bazarlarına daha sərfəli çıxışını da qeyd etmək lazımdır. Dəmir yolunun açılması ilə Naxçıvan dəmir yolu təsərrüfatının da tamamilə yenilənəcəyini, burada tam avtomatlaşdırılmış, süni intellekt dəstəkli mütərəqqi idarəetmənin tətbiqini də görə biləcəyik. Yerli əhalinin məşğulluq və məskunlaşmasında yeni bir mərhələnin də əsasını qoyacaq olan Qars-İğdır-Naxçıvan dəmir yolu sayəsində Naxçıvanda sənaye parklarından tutmuş bu sahədə müxtəlif vəzifələrdə çalışacaq olan yerli mütəxəssislərin hazırlanmasına qədər bir çox sahələrdə irəliləyişlərin olacağını düşünmək olar.

Dəmir yolu ekoloji təmiz və yaşıl logistika əsasında işləyən quru nəqliyyat növüdür. Avropadakı mövcud təcrübəni nəzərə aldıqda gələcəkdə Qars-İğdır-Naxçıvan dəmir yolunun da yaşıl keçid üzrə ölkəmizin üzərinə götürdüyü qlobal öhdəliklərin yerinə yetirilməsinə mühüm töhfə olacaq. Belə ki, dəmir yolu vasitəsilə yük daşımaları avtomobil nəqliyyatı ilə müqayisədə, təxminən, 75 faiz daha az karbon emissiyası yaradır. Bu mənada, bölgədə daha fərqli yaşıl layihələrin də həyata keçirilməsi üçün səbəb olacaq Qars-İğdır-Naxçıvan dəmir yolunun strateji və iqtisadi əhəmiyyəti ilə yanaşı, siyasi rolunu da qeyd edə bilərik. Bu siyasi təzyiq layihənin ekoloji əhəmiyyəti ilə yanaşı, eyni zamanda onun Ermənistanın regional sülhə qarşı yürütdüyü siyasətinə də zərbə vasitəsi olacaq. Belə ki, Zəngəzur dəhlizinin açılmasına israr edən Ermənistanın onun qərb sərhədləri boyunca uzanacaq Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsindən də kənarda qalması nəticəsində yaranacaq təsirdən nəticə çıxarmaqla onun da regional layihələrə qoşula bilməsi üçün qonşularına qarşı ərazi iddialarından tamamilə əl çəkməsinə məcbur edər.

Göründüyü kimi, təkcə iki dövləti birləşdirəcək və Çin-Avropa arasında qlobal nəqliyyat qovşağının bir hissəsi olacaq Qars-İğdır-Naxçıvan dəmir yolu həm də bir ekosistem kimi işləyərək bölgə ölkələrinin iqtisadi maraqlarını ödəyən, qarşılıqlı əməkdaşlığa ədalətli yollar açan bir magistral da olacaq. Naxçıvandan keçəcək bu dəmir yolunun birləşdirdiyi ölkələr və xüsusən də Azərbaycan özünün bütün iqtisadi imkanları ilə qarşıdakı dövrdə yaradılacaq iqtisadi inteqrasiyanın daha uzunömürlü olması üçün çalışacaq, yolu gələcəyin İpək Yoluna çevirəcəklər.

**Əli CABBAROV**

## Naxçıvanda sahibkarlara 1,3 milyon manat dövlət maliyyə dəstəyi göstərilib

"Sahibkarlara dəstək çərçivəsində 2025-ci ilin I rübü ərzində Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən 37 investisiya layihəsinin maliyyələşdirilməsinə 1,3 milyon manat güzəştli şərtlərlə dövlət maliyyə dəstəyi göstərilib".

Bu sözləri "Şərq qapısı"na açıqlamasında Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov deyib.

Nazir müavini qeyd edib ki, 2025-ci ilin yanvar-mart aylarında Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilən layihələrin sayı 2024-cü ilin eyni dövrü ilə müqayisədə 4,6, verilmiş güzəştli kreditlərin məbləği isə 7,1 dəfə artıb. Maliyyələşdirilən layihələr üzrə 51 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

"2025-ci ilin I rübündə müvəkkil kredit təşkilatlarının siyahısına 2 yeni bank əlavə olunaraq 8-ə çatıb. Cari ilin üç ayı ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilmiş güzəştli kreditlərin 12 faizi Naxçıvan şəhərinin, 88 faizi isə regionların payına düşüb. Həmin dövrdə maliyyələşdirilmiş layihələrin 43 faizi kiçik həcmli, 57 faizi isə orta həcmli kreditlərin payına düşür və bu maliyyələşdirmə muxtar respublikanın bütün bölgələrini əhatə edir", – deyə Abbas İsmayılov əlavə edib.

# Naxçıvanın yeni ekoloji dönüşümü
## *Xan çinarlar uzunömürlülük rəmzi, təbiətin salnaməsidir*



Ötən həftədən başlayaraq Naxçıvan şəhərinin mərkəzi küçə və prospektlərində əkilən beşillik Xan çinar fidanları sakinlərin və bölgəmizə səyahətə gəlmiş qonaqların marağına səbəb olub. Belə ki, təkcə yaşıllıq deyil, eyni zamanda tarix boyunca Azərbaycan şəhərlərinin yaraşığı olmuş Xan çinarlar uzunömürlülük, vüqar simvolu, gözəllik, təmizlik və sərinlik mənbəyi olmuşdur. Odur ki, hər yayın istisində şəhərimizin mərkəzindəki cəmi üç çinar ağacının sərin kölgəsindən zövq alan Naxçıvan sakinləri də bir zamanlar digər yerlərdə onların yerinə əkilmiş "liliput yolkaları" heç bir kölgəliyə və sərinliyə yaramadığını açıqca etiraf edirdilər.

Dünya yaranandan bəri insanın gördüyü ən savab işlərdən biri, bəlkə də, birincisi, ağac əkib onu ərsəyə çatdırmaqdır. Naxçıvan kimi iqlimi quraq və isti olan bir diyarda el birliyi ilə əkilən ağaclar da sadə insanların bu torpağa məhəbbətinin məhsuludur. Amma ağaclandırma da bir elm sahəsidir, burada elmi araşdırma aparılıb və dünya təcrübəsi öyrəniləndən sonra bölgədə əkiləcək düzgün ağac növü, yerin torpaq və su təminatı xüsusiyyətləri də mütləq nəzərə alınmalıdır. Ona görə də bir zamanlar Naxçıvanda şəhəri başdan-başa kifayət qədər bahalı qiymətə idxal olunmuş iynəyarpaqlı ağaclarla "bəzəmək" həvəsi ilə alışıb yananlara, hələ bir də Allahdan da qorxmayaraq tikinti və ya təmir bəhanəsi ilə on illərlə çəkilmiş əziyyətin bəhrəsi olan iri ağacları təkcə kəsməyib, hətta ağır texnika ilə onları dibindən qazıyıb çıxaranlara nə ad vermək olar?! Həmin vaxtlar Əlincəqalanın, Ordubad, Culfa, Qarabağlar abidələrinin tarixinə yamaq vurub "tarixə düşmək" istəyənlər bu minvalla şəhərimizdəki qocaman ağacların yenidən pöhrələməsi üçün inadla çalışırdılar. Beləcə, şəhərimizin ekoloji vəziyyətinə məsul olan qurumların da məsuliyyətsizliyi ucbatından hər il yüzlərlə iri ağac xırda məmur düşüncəsizliyinin qurbanına çevrilirdi. Əgər kimsə onların yerini görmək istəsə, səhralaşmış konkret ünvanları aidiyyəti üzrə göstərə bilərik.

Ölkəmizin Gəncə, Şuşa, Şəki, Zəngilan, Ordubad kimi şəhərlərində Xan çinarları görəndə bu gözəlliyə çata bilmək üçün çox da dərin təhlil gərəkmədiyini düşünmək olar. Hələ on il əvvəl təhsil proqramı çərçivəsində qardaş ölkə Özbəkistanın iqlimi Naxçıvanla bənzər olan Fərqanə, Əndican kimi şəhərlərində gördüyüm, sözün əsl mənasında, səmaya tavan çəkmiş irigövdəli, beşmərtəbəli binadan da hündür çinarlar, bu mənada, insanda həm sevgi, həm də qısqanclıq hissləri yaradırdı. Bəzilərinin ömrü min ildən çox olan, torpaq eroziyasının qarşısını alan, havadakı toz və digər suspenziya şəkilli zəhərli maddələri süzdürüb yox edən, sərin mikroiqlim mühiti yaradan belə çinarlar iqlim dəyişikliyinə də qarşı ən yaxşı mübarizə vasitələrindən biri kimi isti qurşaqda yerləşən ərazilərdə geniş yayılıb. Otuz il ərzində erməni vandalizminə və ekosidinə məruz qalmış Bəsitçay Dövlət Təbiət Qoruğundakı çinarlarımız da, bu mənada, həmin ərazilərimizdəki genetik bankımız kimi uğurla öz kimliyini qorumağı bacarmışdır.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə artıq Naxçıvan şəhərində yerləşən Zəfər parkında, Əcəmi Seyrangahı Mədəniyyət və İstirahət Kompleksində, Heydər Əliyev prospektində, Əziz Əliyev, Cəlil Məmmədquluzadə, Nizami Gəncəvi və "İstiqlal" küçələrində və şəhərin digər ərazilərində xeyli sayda Xan çinar və akasiya ağaclarının əkini davam etdirilir. İnanırıq ki, Araz üstündəki qədim Naxçıvanın bu mərkəzi prospekt və küçələrində, həmçinin Naxçıvan Dövlət Universitetinin ərazisində əkiləcək toplamda 1300-dək fidan sürətlə boy atıb, bir zamanlar Şuşada Vaqifin, Natəvanın ilham mənbəyi olmuş ağaclar kimi bizim şəhərimizə yeni bir estetik görüntü, torpağa ikinci həyat, insanlara yeni bir rifah qazandırıb, gənclərin görüş məkanı kimi də tanınacaq. Şahbuz torpağının ölməz, nəğməkar şairi Məmməd Arazın "Araz üstə çinar gördüm" şeirində yazdığı kimi:

*Araz üstə çinar gördüm.*  
*Qoşa çinar.*  
*Budaqları bir-birinə*  
*dolaşan çinar.*  
*Yarpaqları bir-biriylə*  
*öpüşən çinar.*

**Əli CABBAROV**

# Naxçıvanın ekoloji vəziyyəti daha da yaxşılaşır

*Müasir dövrdə şəhərlərin sürətli inkişafı fonunda ekoloji tarazlığın qorunması və ətraf mühitin mühafizəsi mühüm əhəmiyyət kəsb edir. Şəhər mühitində yaşıllıqların artırılması həm insanların sağlamlığı, həm şəhərin ekoloji davamlılığı, həm də estetik görünüşü baxımından prioritet məsələlərdən biridir.*

Yaşıllıqlar, parklar, bağlar, ağaclıq sahələr və digər yaşıl zonalar şəhər sakinlərinin istirahəti, havanın təmizlənməsi, səs-küyün və istiliyin azaldılması kimi funksiyaları yerinə yetirir. Həmçinin yaşıllıqların çoxluğu şəhər mikroiqlimini yaxşılaşdırır, stresin azalmasına və ümumi həyat keyfiyyətinin yüksəlməsinə səbəb olur. Bu məqsədlə ölkəmizin bütün bölgələrində olduğu kimi, muxtar respublikamızda da şəhərsalma siyasətində yaşıllığın artırılması və qorunması istiqamətində mühüm addımlar atılır. Yeni ağacların əkilməsi, mövcud yaşıllığın qorunması və aid təşkilatların bu prosesə cəlb edilməsi dayanıqlı şəhər inkişafının vacib komponentlərindəndir.

Nəticə etibarilə, şəhərdə yaşıllıqların artırılması ekoloji təhlükəsizliyin təmin olunmasına, iqlim dəyişikliklərinin təsirinin azaldılmasına və gələcək nəsillər üçün daha sağlam yaşayış mühitinin yaradılmasına xidmət edir.

Naxçıvan şəhərində yaşıllıq sahələrinin genişləndirilməsi məqsədilə son günlərdə genişmiqyaslı ağacəkmə işlərinin həyata keçirilməsi, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhərin mərkəzi küçələrində uzunömürlü, iqlimədavamlı, estetik görünüşü gözəl olan, bir neçə ildən sonra şəhərimizin görünüşünü müsbət mənada tamamilə dəyişəcək və bol oksigen istehsal edəcək "Qırmızı Kitab"a daxil edilmiş Xan çinarı, həmçinin akasiya ağaclarının əkilməsi çox sevindirici və təqdirəlayiq haldır.

Həyata keçirilən bu işlər Naxçıvan şəhərinin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına, şəhər sakinlərinin sağlam və müsbət aurada yaşamasına, həmçinin şəhərimizə gələn qonaqlarda xoş təəssüratların yaranmasına əsaslı töhfə verəcəkdir.

**Canməmməd CANMƏMMƏDOV**  
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

# Naxçıvan şəhərinin işıqlandırma sistemində təmir-bərpa işləri aparılır



Naxçıvan Şəhər İcra Hakimiyyətinə daxil olunan vətəndaş şikayətləri əsasında Naxçıvan Şəhər Bələdiyyəsi tərəfindən şəhərin Heydər Əliyev prospekti, Əziz Əliyev və "İstiqlal" küçələrindəki işıqlandırma sistemlərində təmir-bərpa işləri aparılır. Təmirə ehtiyacı olan lampalar təmir olunur, tamamilə istifadəyə yararsızları isə yeniləri ilə əvəzlənir. Görülən işlər nəticəsində 80-ə yaxın işıq dirəyində təmir işləri görülüb, 25-i yenisi ilə əvəzlənib.

Bələdiyyədən verilən məlumata görə, mərkəzi küçələrdəki işlər başa çatdıqdan sonra şəhər ətrafında da təmir işləri davam etdiriləcək.

# Bənəniyar su anbarını qidalandıran kanal yenidən qurulur

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində işlər davam etdirilir.

Bu istiqamətdə Bənəniyar su anbarını qidalandıran kanalın yenidən qurulması işləri sürətlə aparılır. Hazırda Bənəniyar gölünə 5 kubluq su kanalının çəkilişi davam edir. Belə ki, 1700 metr uzunluğunda, diametri 1600 metr olan şüşə liftlin borular çəkiləcək, 3550 metrlik düz, 800 metrlik V kanalı qurğularla birlikdə inşa ediləcək.

Bu borulardan əlavə, kənd üçün (köhnə kanal üçün) suayırıcılar və 315 millimetr diametrdə olan siyirtmələrdən ibarət su kanalı, kəndin digər tərəfinə isə 627 metr uzunluğunda 1200 millimetr diametrdə su xətti çəkiləcək.

Qeyd edək ki, tikinti işləri tender müsabiqəsində qalib olan "HOVERS GROUP" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən aparılır.







# Yeni turizm mövsümündə qarşıda ciddi vəzifələr dayanır

*Naxçıvan Muxtar Respublikası Azərbaycanın ən qədim və zəngin tarixi-mədəni irsə malik bölgələrindən biridir. Unikal coğrafi mövqeyi, sərfəli tranzit imkanları, zəngin təbii və müalicəvi ehtiyatları və qədim abidələri ilə Naxçıvan turizm üçün böyük potensiala malikdir. Bu potensialın dəyərləndirilməsi ilə bölgənin sosial-iqtisadi inkişafında əldə oluna biləcək nəticələr Naxçıvanı ölkəmizin yeddi mühüm turizm regionundan biri edir. Lakin hazırda blokada şəraitində olması və turizmin mövsümi xarakter daşıması bu sahənin inkişafında müəyyən çətinliklər yaratsa da, mövcud ehtiyatların qiymətləndirilməsi ilə Naxçıvanda turizmin mövcud vəziyyətinə, problemlərin həllinə və inkişaf perspektivlərinə dair optimist yanaşmaları ifadə etmək mümkündür.*









Naxçıvanda turizm mövsümi xarakter daşıyıb, əsasən, hava yolu ilə Bakıdan və Türkiyə üzərindən gələn turistlər hesabına formalaşır. Naxçıvandan quru yolla ölkəmizin digər regionlarına birbaşa çıxışın olmaması turist axınını məhdudlaşdırır, xüsusən yay aylarında hava nəqliyyatında müşahidə olunan sıxlıq ucbatından turistlərin gəlişində çətinliklər yaşanır. Bundan əlavə, Naxçıvanın iqlimi kontinental olduğundan, yay aylarının çox isti, qış aylarının isə sərt keçdiyindən əsas turist axını yaz və payız mövsümlərinə təsadüf edir. Bu da turizmin ilboyu stabil gəlir gətirməsinə mane olan amillərdən biridir.

Regionda turizm infrastrukturu formalaşsa da, otellərdə yerlərin daim dolu olmaması turizm sahəsində gəlirliliyin aşağı səviyyəsini göstərir.

Buna baxmayaraq, Naxçıvan geniş daxili turizm potensialına da malikdir. Tarixi-mədəni yerlərə, xüsusən Əshabi-kəhfə edilən ziyarətlər, Duzdağ və Darıdağ kimi sağlamlıq turizmi obyektləri və Şahbuz, Ordubad, Culfa və Şərurun dağlıq ərazilərindəki kənd turizmi imkanları yerli turistlərin marağını cəlb edə biləcək əsas məkanlardandır. Son illərdə kənd yerlərində turizm xidmətləri üzrə kiçik sahibkarlıq da inkişaf etməyə başlayıb ki, bu da yerli icmalar üçün yeni məşğulluq və daimi məskunlaşma səbəbi yaradır.

Naxçıvana səyahətin özünəməxsus təəssüratları vardır. Azərbaycan dövlətçiliyinin qədim tarixi izlərini yaşadan Naxçıvan müstəqil dövlətimizin banisi Ulu Öndər Heydər Əliyevin doğulduğu və 1990-cı illərin çətin dövrlərində fəaliyyət göstərdiyi məkan kimi 50 milyonluq azərbaycanlının səfər edəcəyi ən maraqlı məkandır. Burada turistlərin maraqla tanış olduqları Əlincəqala, Ordubad şəhərinin tarixi məhəllələri, Nuh Peyğəmbərin türbəsi, Xan Sarayı, Möminə xatın və Qarabağlar türbələri, Naxçıvandakı unikal muzeylər və digər tarixi məkanlar Naxçıvanın zəngin tarixini əks etdirən cəlbedici yerlərdəndir.

Naxçıvana səyahət sağlamlığın möhkəmləndirilməsi və bərpası üçün də ən yaxşı seçimlərdəndir. Təmiz, quru hava, az çirklənmiş ətraf mühit, sıx olmayan məskunlaşma və təmiz orqanik qidalar burada rekreasiya üçün cazibədar təkliflər hazırlamağa imkan yaradır. Duzdağ Fizioterapiya Mərkəzi və "Darıdağ" termal suyu sağlamlığın bərpası üçün, Batabat yaylağı, həmçinin Ordubadın, Şahbuzun dağ kəndləri isə sağlamlığın möhkəmləndirilməsi üçün yaxşı şərait vəd edir. Xüsusən kənd turizmi həm mənalı istirahət, həm də sosial-iqtisadi inkişaf baxımından Naxçıvanda daxili turizmin inkişafı üçün əsas göstərici olmaqdadır.

Naxçıvanda turizm sektoru son illərdə burada aparılan islahatların ən uğurlu sahəsi olmaqdadır. Xüsusən yerli imkanlar hesabına burada yaradılmış kiçik istirahət məkanları və kənd kotteclərı əhalinin məşğulluğu və azgəlirli insanların da aktiv səyahətə cəlbi baxımından özəl-dövlət əməkdaşlığına nümunə olmaqda blokadanı bəhanə gətirənlərə qarşı ən yaxşı cavabdır. Başqa sözlə, sırf kommunikasiyadan danışıb turizm planlanmasını bunun üzərinə qurmaqdansa, bir an öncə alternativ variantlar üzərində də düşünənlərə baxmaq turizmə məsul olan yoldaşların da diqqətindən qaçmamalıdır. Əgər şəhərdə çox sayda şadlıq evləri və ya turistik kəndlərdə bir neçə mərtəbəli fərdi villalar ucalırsa, bu, dediyimiz fikirlərə ən yaxşı sübutdur.

Naxçıvanlılar isə hər il aktiv səyahətlərə yollanan insanlardır. Hava yolu ilə ölkəmizin digər yerlərinə, eləcə də Avropaya, quru yolla Türkiyə və Gürcüstana səfər edən muxtar respublika sakinləri evlərinə qayıtdıqda aldıqları təəssüratla yanaşı, xidmət mədəniyyəti və təşkilatçılıqdan da danışırlar. Təşkilatçılığın turizmdə əsas şərtlərdən biri olduğunu unutmasaq, bütün zəruri infrastrukturun yaradıldığı və dövlət dəstəyinin mövcud olduğu Naxçıvanda bu sahədəki problemlərin də özəyini görürük. Bu da, öz növbəsində, yeni mövsümdə turizm sahibkarlığının üzərinə böyük məsuliyyət qoyur.

Turizm sahəsindən gəlir əldə olunması və ətraf mühitin qorunması bu sahənin dayanıqlı inkişafı üçün ilk şərtlərdən biridir. Bu mənada, muxtar respublikamızda xidmət sektorunun ekoloji tarazlığa töhfə verməsi və ölkəmizin iqlim dəyişikliyinin səbəblərinə qarşı mübarizə sahəsində üzərinə götürdüyü və uğurla davam etdirdiyi öhdəliklərlə uyğun şəkildə fəaliyyət göstərməsi ön planda olan məsələlərdəndir. Xüsusən ekoturizm məkanlarında turistlərin və yerli ekskursantların beynəlxalq normalara uyğun şəkildə istirahət və əyləncəsinin təşkili bu baxımdan ciddi amildir. Ümid edirik ki, yeni mövsümdə Naxçıvanın turizm üzrə məsul şəxsləri Batabatda ətraf mühitin təmiz saxlanılması, buraya həftəsonu səyahət edənlər üçün avtomobil dayanacaqlarının yaradılması, Küküdə, Keçilidə, Ərəfsədə dərman otlarının və dağ pencərlərinin qazanc üçün kökündən qazılmasının qarşısının alınması, Əlincəqalanın ətəyində buraya turistləri gətirən avtomobillər üçün yaradılan dayanacağın genişləndirilməsi kimi ilk baxışda kiçik görünən, amma turizm və ekoloji tarazlığa zərər vuran bəzi məsələlərin həllinə də diqqət edəcəklər.

Həmçinin Ordubad şəhərinin turizm potensialından səmərəli istifadə olunması, dövlət başçımızın bu qədim şəhərin tarixi hissəsinin qoruma altına alınması və turizm məqsədilə istifadəsi üzrə qarşıya qoyduğu vəzifələrin icrası da bu il diqqətdə saxlanılacaq. Bu vəzifələr arasında isə, heç şübhəsiz, 5 iyun 2023-cü il tarixdə dövlət başçımızın Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da qeyd olunan Naxçıvan Muxtar Respublikasının turizm cəlbediciliyinin artırılması və tarixi-memarlıq abidələrinin beynəlxalq səviyyədə qorunması məqsədilə həmin abidələrin UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün işlərin aparılmasını da xüsusilə qeyd etmək lazımdır.

İnsanlar öz əzizlərini, yaxınlarını ziyarət etmək üçün uzaqdan, yaxından səfərlərə çıxır, zəngin təəssürat alırlar. Naxçıvanda da mövsümü fürsət bilən insanlar üçün turizm səyahətləri ikiqat bayram və sevinc gətirir. Arzumuz odur ki, bütün ilboyu Naxçıvana səyahət edən turistlərin timsalında bu, davamlı olsun, insanlar bol qazanc əldə edib, doğma yurdumuzun zəngin qonaqpərvərliyini tanıtsınlar.

**"Şərq qapısı"**

## Dünyaşöhrətli alim, professor Xəlil Kələntər ali təhsil ocağında təlim keçib





Naxçıvan Dövlət Universitetində Beynəlxalq Təlim Aylığı çərçivəsində təşkil olunan növbəti təlimi Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvü, elektronika sahəsində dünyaşöhrətli alim, ixtiraçı, professor Xəlil Kələntər keçib.

Universitetin strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli çıxış edərək ümumdünya miqyasında tanınan professorun elmi fəaliyyətlərindən bəhs edib. Bildirib ki, artıq bir neçə ildir, Xəlil Kələntər Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlıq edir, burada təlim və tədqiqat proseslərinə töhfə verir. Onun universitetdə apardığı elmi araşdırmalar bir sıra yüksək indeksli beynəlxalq jurnallarda, o cümlədən Yaponiyada dərc olunub. Professorun NDU əməkdaşları ilə birgə ortaq elmi məqalələri də mütəmadi olaraq çap olunur.

Professor Xəlil Kələntər təlimdə LCD ekranlar, mikroreflektor və mikrodeflektorlar, dəyişdirilmiş BLU strukturu, 3D üçün eynəyin strukturu, ikiqat səth emissiyalı arxa işıqlandırma texnologiyaları və digər innovativ displey texnologiyaları haqqında təqdimatla çıxış edib.

Daha sonra Naxçıvan Dövlət Universiteti adından ali təhsil ocağının elmi fəaliyyətinə verdiyi töhfələrə görə professor Xəlil Kələntərə təşəkkürnamə təqdim edilib.

Qeyd edək ki, 1-30 aprel tarixlərini əhatə edən Beynəlxalq Təlim Aylığı çərçivəsində dünyanın 6 ölkəsindən 21 təlimçi 5 əsas sahə üzrə 3 dildə 21 mövzuda təlimlər keçir. Bu təlimlərdə muxtar respublikada fəaliyyət göstərən bütün qurumların nümayəndələri də ödənişsiz olaraq iştirak edirlər.



## Tünzalə Ağayeva autizmli uşaqlar üçün səhnədə

Naxçıvan şəhərində “Autizmli Uşaqlara Dəstək” İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Xalq artisti, bəstəkar, müğənni Tünzalə Ağayevanın xeyriyyə konserti keçirilib. Konsertin əsas məqsədi autizmli uşaqların və onların ailələrinin sosial inteqrasiyasını gücləndirmək, onlara lazımi dəstəyi göstərməkdir.

Tədbirdən əldə olunan gəlir bu kateqoriyaya daxil olan uşaqların müalicə və dəstək proseslərinə yönəldilib.

Tədbir yüksək əhvali-ruhiyyə ilə keçib, tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Tünzalə Ağayeva səhnədə özünün sevilən və hit mahnılarını ifa edib. Onun çıxışı həm emosional, həm də enerjili atmosfer yaradaraq zalda əyləşən hər kəsə unudulmaz anlar yaşadıb.

## Naxçıvanlı şagird olimpiadalarda uğur qazanıb




Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbin şagirdi Cavid Bağırov beynəlxalq olimpiadalarda uğur qazanıb. İstedadlı şagird çox sayda təltif və medallara layiq görülüb.

Cavid bu il beynəlxalq səviyyədə keçirilən AMO (American Math Olympiad) Olimpiadasında birincilik əldə edərək qızıl medala sahib olub. Bundan əlavə, Cavid Amerika Riyaziyyat Olimpiadası vasitəsilə Sinqapura dəvət alıb.

Onu da bildirək ki, Cavid Octopus Olimpiadasının birinci mərhələsində yüksək nəticə əldə edərək ikinci mərhələdə iştirak etmək hüququ qazanıb.

İştirak etdiyi sınaq imtahanlarında daim yüksək nəticə göstərən, 2 dəfə 700 bal toplayan Cavid deyir: “Riyaziyyat fənnini çox sevirəm, olimpiadalarda, sınaq imtahanlarında iştirak etmək mənim üçün böyük motivasiya mənbəyidir. Dərs çalışmaq və yeni biliklər əldə etmək məni xoşbəxt edir. Uğurlarım təkcə mənim səylərimin nəticəsi deyil, eyni zamanda müəllimlərimin və valideynlərimin mənə verdiyi dəstəyin bəhrəsidir. Onların inamı və dəstəyi məni daha irəli getməyə sövq edir”.

Biz də bu istedadlı şagirdə təhsil həyatında uğurlar arzulayırıq.

✍ Aygün RÜSTƏMOVA

## Naxçıvanın ümumtəhsil məktəblərinin şagirdləri bu il ilk dəfə olaraq PISA 2025 – Beynəlxalq Şagird Qiymətləndirilməsi Tədqiqatında iştirak edəcək

Aprelin 10-da Naxçıvanda PISA 2025 – Beynəlxalq Şagird Qiymətləndirilməsi Tədqiqatında ilk dəfə iştirak edəcək şagirdlərlə maarifləndirici görüş keçirilib.

Naxçıvan Dövlət Universtitetinin Beynəlxalq Məktəbində keçirilən görüşdə Naxçıvan şəhər 7, 15, 17 nömrəli tam orta məktəblərin, Naxçıvan Qızlar Liseyinin, Naxçıvan Qarnizonu tam orta məktəbinin və Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ingilisdilli gimnaziyanın tədqiqatda təmsil olunacaq şagirdləri iştirak ediblər.

Görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov iştirakçıların diqqətinə çatdırıb ki, PISA – Beynəlxalq Şagird Qiymətləndirilməsi Tədqiqatında ölkəmizin ümumtəhsil məktəbləri 2018-ci ildən iştirak edir. Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəbləri isə bu il ilk dəfə olaraq bu tədqiqatda iştirak edəcək. Qeyd olunub ki, tədqiqatda muxtar respublikanın



12 təhsil müəssisəsindən 328 məktəblinin iştirakı nəzərdə tutulur. Təhsil naziri tədqiqatda iştirak edən şagirdlərə uğurlar arzulayıb.

Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor vəzifələrinin icraçısı Elnur Əliyev bildirib ki, PISA ümumi təhsil müəssisələri üzrə 15 yaşlı şagirdlərin oxu, riyaziyyat, təbiət elmləri və yaradıcı düşünmə üzrə bilik-bacarıqlarını qiymətləndirmək, eyni zamanda onları real həyatda tətbiq etmək qabiliyyətlərini müəyyənləşdirmək məqsədilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən 3 ildən bir keçirilən beynəlxalq qiymətləndirmə tədqiqatıdır. Tədqiqatın ölkəmizdə həyata keçirilməsi Təhsil İnstitutu tərəfindən təşkil olunacaq və tədqiqatda ölkə üzrə 8 mindən artıq şagird iştirak edəcək. Bu il tədqiqata 91 ölkənin şagirdlərinin qoşulacağını qeyd edən Elnur Əliyev qiymətləndirmənin şərtləri, qaydaları, istifadə olunan suallar və sualların cavablandırma qaydaları haqqında məktəblilərə geniş məlumat verib. Görüşdə tədqiqatla bağlı müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, həmin gün növbəti görüşlər Şərur və Kəngərli rayonlarının ümumtəhsil məktəblərinin şagirdləri ilə olub. Ordubad və Culfa rayonlarının tədqiqatda iştirak edəcək məktəbliləri ilə görüşün keçirilməsi də nəzərdə tutulur.

## Tibbi personalın bilik və bacarıqlarının artırılması məqsədilə təlimlər təşkil olunub

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası istiqamətində əhalinin tibbi xidmətə əlçatanlığının artırılması və keyfiyyətli xidmətin göstərilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

İlkin olaraq Ordubad, Kəngərli və Sədərək rayonları üzrə ASM əməkdaşları təlimlərdə iştirak edib. Təlimlərdə əsas diqqət göstərilən tibbi xidmətin insan amilinə əsaslanmasına, həkim-pasiyent münasibətlərində etimadın və düzgün ünsiyyətin qurulmasına yönəldilib.

Ailə Sağlamlıq mərkəzlərinin fəaliyyətində əsas hədəf tibb xidmətini əhalinin birbaşa yaşadığı ərazilərə yaxınlaşdırmaq, ilkin tibbi yardımı daha əlçatan və keyfiyyətli etməkdir. Keçirilən təlimlər bu hədəfə xidmət edir və tibbi personalın peşəkarlığının artırılmasına, vətəndaş məmnunluğunun da yüksəldilməsinə imkan yaradır.

Nəticə etibarilə, Naxçıvan Muxtar Respublikasında icra olunan Dövlət Proqramı çərçivəsində yaradılan yeni səhiyyə infrastrukturu, həyata keçirilən təlimlər və tətbiq olunan innovativ yanaşmalar əhalinin sağlamlığının qorunması və tibbi xidmətin keyfiyyətinin artırılması istiqamətində mühüm addımdır.





## Əmrah Nağıyev Türkiyədə keçirilən marafonun ilk beşliyində

Aprelin 6-sı Türkiyənin Antalya şəhərində 20-ci Runtalya Marafonu reallaşıb. Beynəlxalq qaçış yarışında 65 ölkədən 1800-ü idmançı olmaqla, ümumilikdə, 10 min iştirakçı sayı qeydə alınıb. Tədbir çərçivəsində 5K, 10K, 21K, 42K, “10K Teams Run” yarışları keçirilib.

Naxçıvandan olan atlet Əmrah Nağıyev ölkəmizi marafonun 10 kilometrlik (10K) məsafəsində təmsil edib. İdmançımız 1600-dən çox iştirakçının mübarizə apardığı yarışda 4-cü olub. Əmrah finişədək 35 dəqiqə 36 saniyə vaxt sərf edib.

Əlavə edək ki, beynəlxalq marafonların daimi iştirakçısı olan Əmrah Nağıyevin ən yaxşı nəticəsi 2023-cü ilə təsadüf edir. Belə ki, atletimiz 43-cü Beynəlxalq Trabzon Yarı Marafonunda 10 km məsafə üzrə 6-cı (40 dəqiqə 40 saniyə) olmuşdu.

## Naxçıvan karateçiləri beynəlxalq turnirdə 22 medal qazanıb

Bakı şəhərində karate üzrə beynəlxalq turnir keçirilib. “Grand Prix Azerbaijan” adlanan yarış Sərhədçi Olimpiya İdman Kompleksində 14 ölkədən 1200 idmançının iştirakı ilə reallaşıb.

Naxçıvan Muxtar Respublikasından 34 karateçi ölkəmizi təmsil edən idmançılar sırasında olub. Onlardan 22-si mükafatçılar sırasına düşüb. Həmin idmançılar tərəfindən 3-ü qızıl, 9-u gümüş və 10-u bürünc olmaqla, ümumilikdə, 22 medal qazanılıb.

Təmsilçilərimizdən Gülər Hüseynova (54+ kq) 14-15, Fuad Sadiqov (35 kq) 10-11 və Mehdi Məmmədov (35 kq) 8-9 yaş kateqoriyalarında birinci yerə layiq görülüblər.

Müvafiq yaş və çəki kateqoriyalarında Məhəmməd Quluzadə, Püstə Məmmədli, Kamil Rüstəmov, Əli Həmidov, Həsən İbrahimli, Əli Rəhimov, Yusif Məmmədli, Fuad Hüseynov, Ziya Quluzadə ikinci, Vüsal Seyidov, Qafar Hüseynov, Xədicə Bayramova, Fatimə Bağırzadə, Yusif Tağıyev, Rahib Seyidli, Nurəddin Fərzəliyev, Yusif Bayramzadə və Oruc Əhmədov üçüncü yerə layiq görülüblər. Azər Məmmədli isə parakarate yarışında üçüncü olub.



## Naxçıvan şəhərinin ümumi təhsil müəssisələrində imtahanlar keçirilib



*Dövlət İmtahan Mərkəzi tərəfindən Naxçıvan şəhərinin ümumi təhsil müəssisələrində imtahanlar təşkil olunub.*

İmtahanlar əvvəlki il məzunları üçün qəbul imtahanı, mart ayında keçirilən buraxılış imtahanında üzrlü səbəbdən iştirak edə bilməyən XI sinif şagirdləri üçün, tam orta təhsil səviyyəsi üzrə eksternat qaydasında təhsil sənədi almaq istəyənlər və müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyən cari il məzunları üçün əlavə xarici dil imtahanı keçirilib. İmtahan Naxçıvan şəhərinin 5 ümumi təhsil müəssisəsinin binasında keçirilib. İmtahanda, ümumilikdə, 1543 nəfər iştirak edib. İmtahanın idarə olunmasına 19 imtahan rəhbəri, 164 nəzarətçi cəlb olunub.

Qeyd edək ki, imtahan saat $11^{00}$-da başlanıb və 3 saat davam edib.

## DÜNYA xəbərləri

### Yer kürəsində güclü maqnit qasırğası baş verib

Uzun müddətdir, davam edən maqnit qasırğası Yer kürəsini hələ də tərk etmir. Alimlər proqnozlaşdırırlar ki, bu vəziyyət həftənin sonuna qədər davam edəcək.

Ekspertlərin proqnozuna görə, geomaqnit qasırğasının pik nöqtəsi axşam saatlarında olub. Onun ümumi təsiri isə sutka ərzində hiss olunacaq. Geomaqnit qeyri-sabitliyi insanların sağlamlığına mənfi təsir göstərə bilər. Belə ki, başağrısı, təzyiqin dəyişməsi, başgicəllənmə, ürək döyüntülərinin artması və nəfəs almaqda çətinlik yarana bilər.

Maqnit qasırğasını rahat keçirmək üçün yuxu rejiminə əməl etmək, fiziki və emosional gərginlikdən uzaq durmaq, daha çox su içmək, vitamin qəbul etmək, həmçinin cihazlardan istifadəni məhdudlaşdırmaq və lazım gəldikdə həkimə müraciət etmək tövsiyə olunur.

### Kopenhagen dünyanın ən xoşbəxt şəhəri elan edilib

London Həyat Keyfiyyəti İnstitutu tərəfindən tərtib olunmuş yeni reytinqə əsasən Kopenhagen dünyanın ən xoşbəxt şəhəri elan edilib.

İlk beşlikdə Sürix (İsveçrə), Sinqapur, Orxus (Danimarka) və Antverpen (Belçika) qərarlaşıb.

Analitiklər reytinqi beş kriteriya üzrə tərtib ediblər: ümumi rifah, idarəetmə, ekologiya, səhhət, mobillik.

Hər bir şəhər ballarla qiymətləndirilib. Qazanılmış ballara görə şəhərlər üç kateqoriyaya bölünüb: "Golden Happiest", "Silver" və "Bronze". Ümumi reytinqə 200 şəhər daxil edilib.

### Ekspertlər: "Skumbriyanın nəsli kəsilmək üzrədir"

Ekspertlər bildirirlər ki, skumbriya ehtiyatları kritik səviyyəyə yaxınlaşır. Hər il Dəniz Ətraf Mühitinin Mühafizəsi Cəmiyyəti (Marine Conservation Society, MCS) ovlanma səviyyəsindən asılı olaraq balıq seçmək üçün tövsiyələrin yer aldığı "Good Fish Guide" təlimat nəşr edir.

Məsələn, vaxtilə bol olan və daha dayanıqlı balıq növü hesab edilən şimal-şərqi Atlantik skumbriyasının ovu son dörd ildə tövsiyə olunan həddi 23 faiz keçib.

MCS meneceri Əlis Murun sözlərinə görə, skumbriya bir çox ölkələrin balıqçılıq təsərrüfatlarının böyük təzyiqinə məruz qalır və tez bir vaxtda o artıq bərpa olunan ehtiyat olmayacaq. "Onun sayının daimi azalmasını müşahidə edirik, o, kritik həddə yaxınlaşır. Böyük Britaniya hökuməti digər ölkələrlə birgə balıq ovu məhdudiyyətlərinin elmi tövsiyələrə uyğun olmasını təmin etmək üçün təcili tədbirlər görməlidir", – deyə mütəxəssis qeyd edir.

İldə iki dəfə yenilənən "Good Fish Guide" təlimatına uyğun olaraq dəniz məhsulları ovlandığı və ya yetişdirildiyi yerə görə təsnif edilir.

# Yazın şəfalı müjdəçiləri





Öz rəngini günəşin zərrin şəfəqlərindən alan, yaşıl dona bürünərək yenicə torpaqdan baş qaldırmış şəfalı otlar və yaz pencərləri ilə bəzənmiş təbiət baharın müjdəçisidir. Naxçıvan sakinləri də bu torpaqda yetişən min bir dərdin dərmanı olan şəfalı otlar və yaz pencərləri yığaraq həm süfrələrini bəzəyir, həm də qış üçün tədarük edirlər. Hansı ki bu nemətlərdən ilboyu faydalanmaq mümkündür. Təbiətin qoynunda yetişən bitkilər – qazayağı, cincilim, unnuca, xıncılovuz, çiriş, əvəlik, kəklikotu, uşqun, bolu, cacıq, çaşır, dağ göbələyi, yarpız, nanə və daha sadalamadığımız onlarla belə bitki şəfa qaynağıdır.

Biz də "Şərq qapısı" komandası olaraq zəhmətkeş insanlarla birgə üz tuturuq çöllərə. Babək rayonunda yurdumuzun qonaqpərvər insanları ilə görüşüb onlarla bərabər pencər yığırıq. Zəhra Mehdiyeva deyir ki, artıq illərdir, yaz aylarında qohum-qonşu qadınlarla birgə şəfalı bitkilər toplayırıq. Bu bitkiləri toplamaq sizə heç də asan gəlməsin. Elə onunla birlikdə biz də kənd ərazisindəki sahədə gəzərək yolboyu pencərlərin yığılma qaydasından və necə bişirilməsindən danışdıq. Müsahibimiz deyir: "Bu sahələrdə də növbənöv pencərlər yetişir. Biz də çaşırdan, qazayağıdan, cacıqdan, çirişdən, dağ kəvərindən yığırıq. Ailələr var ki, bu pencərlərdən yığıb sataraq qazanc əldə edirlər. Təbiətin bizə bəxş etdiyi gözəl mənzərələr fonunda bitkiləri yığmağın maraqlı tərəfi və sağlamlığa faydası var. İndi bazarda ən qiymətli bitki elə burada yetişən pencərlərdir. Yaşlı nəsil olaraq daha çox sevir və istifadə edirik. Ətrafa nəzər salan zaman görərsiniz ki, başqa kəndlərdən də bu bitkiləri yığmaq üçün gələnlər çoxdur. İndi bazarlarımızda yazın bu yaşıl nemətləri piştaxtaları bəzəyir. Hər biri də münasib qiymətə. Bu günlərdə ən çox tələbat da elə bu qida bitkilərinədir. Hətta aralarında cacıqdan, çirişdən, qazayağıdan alıb qışa tədarük görənlər də var".

Xeyli pencər yığaraq evə üz tutduq. Topladığı pencərlərdən hazırlanan yeməyin qaydasından da danışır Zəhra Mehdiyeva: "Qazayağını yaxşı təmizlədikdən sonra kiçik ölçülərdə doğrayıb qaynadırıq ki, acı suyu təmizlənsin. Sonra qazanda yağda qovrulan soğanın üzərinə əlavə edirik. İçliyə zövqə görə duz, istiot, bir də başqa növ göyərtilər də əlavə etmək olar. Qış üçün tədarük etdiyimiz bu pencərləri Naxçıvan qovurması ilə bişirəndə daha ləzzətli olur. Bu da yeməyə ayrı ləzzət qatır".

Bir az dincəldikdən sonra milli mətbəximizin dadlı yemək növlərindən olan pencər kətəsi hazırlanır. Zəhra nənə kətəni hazırlayarkən söhbətə davam edir: "Biz kətəni uzun illərdir, sac üstündə bişiririk. Hər kəs ocaq üzərində sacda bişən kətəni daha çox sevir. Bu fəsildə də kətənin içliyi yaz pencərlərindən olduğu üçün daha fərqli və dadlı olur. Bişdikdən sonra arasına kərə və ya bitki yağı qoyularaq süfrəyə verilir. İstifadə etdiyimiz şəfa mənbəyi olan bu bitkilərdən həm də bir çox xəstəliklərin müalicəsində istifadə edilir".

Biz də elə isti ocaq başında bişən bu nemətlərin dadına baxıb qonağı olduğumuz evdən "Allah süfrənizi bol, işlərinizi avand etsin", – deyib ayrılırıq.

**Bülbül QULİYEVA**

## Naxçıvanda "SuVar!" adlı ekoloji aksiya keçirilib







Naxçıvan Muxtar Respublikasında "SuVar!" adlı ekoloji aksiya keçirilib. Aksiya Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, eləcə də Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşıb.

Aksiyada müxtəlif dövlət qurumlarının nümayəndələri, ekokönüllülər və müxtəlif müəssisələrdə fəaliyyət göstərən könüllülər fəal iştirak ediblər. Aksiya iştirakçılarına əvvəlcə yaşıllıqların qorunması və genişləndirilməsinin əhəmiyyəti, sudan səmərəli istifadə yolları, eyni zamanda suya qənaət metodları barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, iqlim dəyişikliklərinin təsiri fonunda Naxçıvanın kəskin kontinental iqlim şəraitində ağacların müntəzəm suvarılması və qorunması xüsusi əhəmiyyət kəsb edir. Aksiyanın əsas məqsədi də könüllülərin səfərbərliyi ilə ağacların suvarılmasına dəstək vermək, ictimaiyyətdə ekoloji məsuliyyət hissini gücləndirmək və ətraf mühitin mühafizəsinə töhfə verməkdir.

Daha sonra iştirakçılar komandalara bölünüb və Naxçıvan şəhərinin Heydər Əliyev prospekti və ətraf ərazilərində yerləşən yaşıllıq sahələrində ağacların suvarılması işlərinə başlayıblar. Hər komandada 30 nəfər olmaqla, ümumilikdə, 200-ə yaxın könüllü aksiyada fəallıq göstərib. Onlar təkcə suvarma işlərini həyata keçirməklə kifayətlənməyib, eyni zamanda şəhər sakinlərinin də diqqətini cəlb edərək onları da aksiyaya qoşulmağa təşviq ediblər.

Aksiya çərçivəsində daha bir maraqlı ekoloji təşəbbüs də gerçəkləşdirilib, "Tullantını tingə və ekoçantaya dəyiş" kampaniyası keçirilib. Bu təşəbbüs çərçivəsində iştirakçılar və sakinlər tullantıları ətraf mühitə atmaq əvəzinə ting və ekoçantalara dəyişmək imkanı əldə ediblər. Sakinlər tərəfindən ümumi tutumu 4375 litr olan plastik, 110 litr şüşə tullantı və 180 ədəd işlənmiş batareya təhvil verilib, əvəzində 100 ədəd kızılçam tingi, 65 ədəd ekoçanta alınıb.

"SuVar!" aksiyası gənclər üçün həm maarifləndirici, həm də əyləncəli anlarla yadda qalıb. Könüllülər birlik nümayiş etdirərək təbiətə qulluq etməklə yanaşı, birgə fəaliyyətin və ekoloji dəyərlərin təşviqində fəal rol oynayıblar.

Qeyd edək ki, bu aksiya Naxçıvan Muxtar Respublikasının bütün bölgələrini əhatə edəcək və il sonunadək davam etdiriləcək.

## Allah rəhmət eləsin

Sədərək Rayon İcra Hakimiyyətinin başçısı və icra hakimiyyətinin kollektivi Hüquq şöbəsinin müdiri Şükürov Şərəfəddin Səfər oğluna anası

**Səkinə xanımın**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

### İtmişdir

Şərur şəhəri, Səməd Vurğun küçəsi 2/9 ünvanında olan Hüseynova Şəfiqə İmamverdi qızına məxsus fərdi yaşayış evinin 102013004435-10301 reyestr nömrəli texniki pasport və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Tumaslı kəndində Səfərov Sabir Məmmədhüseyn oğlunun adına olan JN-286[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində Mehdiyev Akif Cəfərqulu oğlunun adına olan JN-1438[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbəsində Şirinov Qasım İmaməli oğluna məxsus olan JN-759[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Vənənd kəndində yerləşən Məmmədov Ədalət Əjdər oğluna məxsus JN-1221[A] və JN-1221[B] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbəsində Həsənov Rəmzi Həsənqulu oğluna məxsus olan JN-2409[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, Mikayıl Müşfiq küçəsi, ev 14, mənzil 10 ünvanında yerləşən Məmmədov İsmayıl Əziz oğluna məxsus mənzilin 22 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kültəpə kənd sakini İbrahimov Rəşid İbrahim oğlunun adına verilmiş JN-0055 nömrəli, 10308028 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kəndində yaşamış Həsənov Ələşrəf Cəlil oğlunun adına olan JN-1634 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kənd sakini Məmiyev Talıb Nadir oğlunun adına olan JN-108[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dərvişlər kənd sakini Tağıyeva Mehriban Azər qızının adına olan 102013007076 reyestr nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Məzrə kənd sakini Hüseynəliyev İmaddin İbrahim oğlunun adına olan JN-0092 nömrəli, 10302018 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Mühbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 109

Nömrəyə məsul: Ramiyə Əkbərova, Bülbül Quliyeva, Cavanşir Bağırlı
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.